www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28 sentyabr 2016-cı il Çərşənbə № 213 (6534) Qiyməti 60 qəpik

**Xəbər**

## Ölkədə analoq televiziya yayımı dayandırılır

yazısı səh.7-də

**Gündəm**

### Referendumun nəticələri rəsmən açıqlandı: 92% “hə” deyib



Prezident referendumun nəticələrindən danışdı və xalqa təşəkkür etdi; AŞ PA nümayəndə heyəti səsvermənin nəticələrini tanıdı; müxalifət islahatlar gözləyir...

yazısı səh.7-də

### Dünyanın heyrətamiz silahları Bakıya gətirildi

yazısı səh.12-də

### QMİ Məhərrəm ayı ilə bağlı fətva verdi: oktyabrın 12-də Aşuradır

yazısı səh.14-də

### Azərbaycan və Rusiya hərbi saziş imzaladı

yazısı səh.11-də

### Aliment Fondu yaradılması təklifi dəstəklənir

yazısı səh.15-də

### Hökumət 22 milyon itirəndən sonra Çin yuanından imtina etdi

yazısı səh.12-də

### Rusiya-Ermənistan hərbi əməkdaşlığına qarşı unikal təklif

yazısı səh.8-də

### İlhamə Quliyevanın oğlu məhkəmə qarşısında

yazısı səh.12-də

### Əhaliyə satılan qaz bahalaşa bilər

yazısı səh.10-da

### Bakıda qorxulu virus yayılıb

yazısı səh.15-də

### Maliyyə nazirindən ziddiyyətli açıqlamalar

yazısı səh.4-də

## Ermənilərin “İsgəndər” eyforiyasını sıfırlayan reaksiya

# RƏSMİ BAKIDAN DÜŞMƏNİN SON ÜMİDİNİ QIRAN MESAJ: “İMKAN VERİLMƏYƏCƏK!..”

**Prezident İlham Əliyevdən işğalçı Ermənistana xatırlatma:** “Regionda ən böyük hərbi potensiala malik ölkəyik”; Bakıdakı 2-ci beynəlxalq müdafiə sərgisi İrəvanın son təxribatlarına növbəti layiqli cavab və unikal fürsət tədbiridir; Azərbaycan 280 km mənzilli ballistik raket istehsalına hazırlaşır...




yazısı səh.9-da

## İcra başçıları üçün iki yol - ya investisiya, ya istefa...

PA-nın şöbə müdiri “kiçik padşah”ların qarşısına şərt qoydu; hökumətin rayon rəhbərləri ilə bağlı siyasəti reallaşır

yazısı səh.10-da



### Mehman Əliyevdən islahatlarla bağlı ilginc açıqlamalar, ciddi anonslar

yazısı səh.5-də



*Hacı İbrahim Nehrəmli:*

### “İstərdim ki, üç vitse-prezidentdən biri mən olum”

yazısı səh.4-də



### Prokuror Cahangir Hacıyevə 17 il cəza istədi

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 213 (6534) 28 sentyabr 2016



## Prezident "ADEX 2016" beynəlxalq müdafiə sərgisində

**Prezident İlham Əliyev Azərbaycanda ikinci dəfə keçirilən "ADEX 2016" beynəlxalq müdafiə sərgisini ziyarət edib. APA-nın xəbərinə görə, Azərbaycan prezidenti Müdafiə Sənayesi Nazirliyinin və sərgidə iştirak edən xarici ölkələrin pavilyonlarında olub.**

Qeyd edək ki, "ADEX-2016" sərgisinə 34 ölkədən 216 şirkət, 19 ölkədən 25 rəsmi nümayəndə heyəti qatılıb. Ziyarətçi şirkət və qurumlarla birlikdə sərginin coğrafiyası 44 ölkəni əhatə edir. Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi tərəfindən "ADEX-2016" sərgisində 260 addan çox müdafiə təyinatlı məmulat nümayiş olunur. "ADEX-2016" sərgisi 30 sentyabra qədər Bakı Ekspo Mərkəzində davam edəcək.



## "Günəşli" yatağında baş vermiş qəzanın aradan qaldırılmasına 7 gəmi cəlb olunub

**Sentyabrın 26-da Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Günəşli" yatağındakı 19-cu stasionar dərin dəniz özülündə 71 saylı quyuda təmir işləri aparılarkən baş verən qaz təzahürü barədə məlumat "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinə daxil olan kimi dərhal Gəmiçilik tərəfindən təxirəsalınmaz tədbirlər görülüb.**

Gəmiçiliyin saytında yerləşdirilmiş məlumata görə, SOCAR və Fövqəladə Hallar Nazirliyi ilə daimi əlaqə saxlayaraq, tələb olunan bütün gəmilər hadisə yerinə mobilizasiya olunmuş və dənizdə aparılan əməliyyatların koordinasiyası təmin edilib. Hadisə yerində Gəmiçiliyin "Nefteqaz-64" və Nefteqaz-10" gəmilərində qərargah yaradılıb və hadisə yerinə cəlb olunan gəmilərin işi koordinasiya olunub, əməliyyata cəlb olunan gəmilərin fəaliyyəti vahid mərkəzdən idarə edilib.

Qəzanın aradan qaldırılmasına və saat 18-dən sonra başlamış yanğının söndürülməsinə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə (AXDG) məxsus "Nefteqaz-10" və "Nefteqaz-64", AXDG-yə məxsus, FHN tərəfindən idarə olunan "Vixr-5" və "Vixr-7" gəmiləri ilə bərabər, BP Azərbaycan şirkətinin rəhbərliyinin razılığı və köməkliyi ilə həmin şirkətə xidmət göstərən gəmilər də cəlb edilib.Belə ki, Xəzərdə ən böyük yedək-təchizat gəmisi olan Gəmiçiliyin "Lənkəran" gəmisi, AXDG - BUE Caspian Alyansının həmin şirkətə xidmət göstərən "Topaz Dignity", "Caspian Protektor", "Caspian Voyager" gəmiləri və onların heyətləri qəzanın aradan qaldırılmasında xüsusi rol oynayıb.

Səhər saatlarında alov söndürüldükdən sonra özüldə təmir-bərpa işləri başlayıb. Hazırda Gəmiçiliyin G.Şıxlinski və Şirvan-2 kran gəmiləri, Nefteqaz-64, Aura, Om təchizat-yedək gəmiləri, AXDG-yə məxsus, FHN tərəfindən idarə olunan "Vixr-5" və AXDG - BUE Caspian Alyansının "Caspian Server" gəmiləri qəzanın nəticələrinin aradan qaldırılması ilə əlaqədar aparılan işlərə cəlb olunub.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# AVCİYA referendumla bağlı bəyanat yaydı




**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı 26 sentyabr 2016-cı il tarixdə keçirilmiş referendumla əlaqədar bəyanat yayıb.**

AVCİYA-nın mətbuat xidmətindən musavat.com-a göndərilən bəyanatda deyilir: "AVCİYA Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı 26 sentyabr 2016-cı il tarixdə keçirilmiş referendumun daha ədalətli və demokratik keçirilməsi, seçki praktikasının təkmilləşdirilməsinə yaxından kömək göstərmək məqsədilə 3000 müşahidəçi ilə 65 DSK üzrə monitorinqi təşkil edib. Bu işin təşkili prosesində regionlarda AVCİYA təlimçilərinin iştirakı ilə seminarlar keçirilmiş, "Azərbaycanda 2016-cı il referendumu ilə bağlı hüquqi çərçivənin müqayisəli təhlili" və Konstitusiyaya əlavə və dəyişiklər edilməsi ilə bağlı Referendum (26 sentyabr 2016-cı il) -"Müşahidəçilər üçün yaddaş" kitabçaları nəşr edilib.

Assosiasiya 26 avqustda "İlkin hesabat", 21 sentyabrda isə "Uzunmüddətli Müşahidənin Aralıq Hesabatı"nı ictimaiyyətə təqdim edib. *(Hesabatlar və digər nəşrlərlə www.avciya.az saytında tanış olmaq olar.)*

Referendum günü səsvermənin gedişi, seçicilərin səsvermədə iştirakı ilə bağlı ilkin məlumatlar gün ərzində 5 dəfə (saat 10-00, 12-00, 15-00, 17-00 və 19-00-da) AVCİYA Seçki Qərargahında fəaliyyət göstərən operatorlar tərəfindən toplanıb, ictimaiyyətə təqdim edilib. Bundan başqa, assosiasiya referendum günü saat 21-00 referendumun nəticələri ilə bağlı özünün ilkin məlumatını ictimaiyyətə bildirib. Referendum günü ölkə üzrə seçici fəallığı yüksək olmuş, bir sıra məntəqələrdə bəzi texniki çatışmazlıqlar istisna olmaqla, elə bir ciddi qanun pozuntusu qeydə alınmayıb. Referendum günü qeydə alınmış bəzi texniki çatışmazlıqlar çox az sayda məntəqələri əhatə etdiyindən referendumun nəticələrinə təsir etmək gücündə olmayıb.

AVCİYA 26 sentyabr 2016-cı il tarixdə keçirilmiş referendumun Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq şəffaf və ədalətli keçdiyini, ictimai-siyasi mühitinin əvvəlki illərlə müqayisədə daha konstruktiv, daha stabil və demokratik olduğunu bildirir. Assosiasiya referendumun Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunması, dövlət təhlükəsizliyi və müdafiəsinin daha səmərəli təşkili, insan haqlarının müdafiəsi, dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi, dövlətin daha da gücləndirilməsi, vətəndaş cəmiyyətinin daha da inkişafında mühüm mərhələ olduğunu bəyan edir».

## Türkiyə Ermənistan AES-in bağlanmasını tələb edib

**"Dünya və bölgənin ikinci Çernobıl faciəsini yaşamasına yol vermək olmaz". "Report" "Anadolu" agentliyinə istinadən xəbər verir ki, bunu Türkiyənin energetika və təbii ehtiyatlar naziri Berat Albayrak Vyanada Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) Baş Konfransındakı çıxışı zamanı bildirib.**

"Ermənistanın Metsamor Atom Elektrik Stansiyası (AES) bağlanmalıdır. O, seysmik bölgədə yerləşdiyindən region, xüsusilə Türkiyə üçün təhlükə mənbəyidir", - deyə o vurğulayıb.

Qeyd edək ki, Ermənistan AES 47 il əvvəl tikilib. Stansiya Türkiyə sərhədindən 16 km aralıda yerləşir. Bu ilin əvvəlində Rusiyanın ayırdığı 270 milyon dollar məbləğində kreditin və 30 milyon dollarlıq qrantın hesabına 2017-ci ilin yazında AES-in əsaslı təmir üçün 3-4 ay müddətinə dayandırılacağı haqda məlumat yayılmışdı.

Xatırladaq ki, Azərbaycan və Türkiyə rəsmiləri, ictimai təşkilatları Ermənistan AES-in bölgəni radioaktiv tullantılarla çirkləndirdiyini dəfələrlə bildirib və stansiyanın bağlanmasını beynəlxalq təşkilatlardan tələb ediblər.



## Şeyx: "Kim bizim dini təqvimdən kənara çıxacaqsa..."

**Qafqaz Müsəlmanları İdarəsi (QMİ) nəşr etdiyi dini təqvimi bu il 1 illik yox, ilyarımlıq buraxıb. APA-nın məlumatına görə, bunu Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə deyib. O bildirib ki, səbəb növbəti dini təqvimi gələn ilin yanvarından etibarən nəşr etməkdir:**

"İndiyə qədər biz dini təqvimləri Məhərrəm ayından növbəti Məhərrəm ayına qədər olan dövr üçün hazırlayırdıq. Amma bizim dövlət dünyəvidir və rəsmi təqvim yanvar ayından başlayır. Biz də rəsmi təqvimdən fərqlilik yaratmamaq üçün növbəti təqvimləri yanvardan başlamaqla nəşr edəcəyik. Bizim nəşr etdiyimiz dini təqvim bütün məzhəblər üçün nəzərdə tutulub və vahid təqvimdir. Kim bundan kənara çıxacaqsa, məzhəb ayrı-seçkiliyi salmış hesab olunacaq. Bu isə cinayət məsuliyyəti yaradır və dini təxribatdır".

## Binəli Yıldırım Medvedyevlə telefonla danışıb

**Rusiyanın baş naziri Dmitri Medvedyev türkiyəli həmkarı Binəli Yıldırımla "Türk axını" boru kəmərinin və "Akkuyu" AES-in tikintisi məsələsini telefonla müzakirə edib. Bu barədə "RİA Novosti" xəbər verir.**

"Dmitri Medvedyev və Binəli Yıldırım həmçinin aktial ticari-iqtisadi əməkdaşlıq məsələlərini, energetika sahəsində irihəcmli birgə layihələrin, o cümlədən "Türk axını" boru kəmərinin və "Akkuyu" AES-in tikintisi məsələsi barədə müzakirə apardılar. Hökumət başçıları eyni zamanda qarşıdan gələn ikitərəfli əlaqələrin qrafikini müzakirə ediblər", - Rusiya hökumətinin mətbuat xidmətinin yaydığı məlumatda deyilir.

Görüş zamanı B.Yıldırım D.Medvedyevi Dövlət Dumasına seçkilərin uğurla keçirilməsi və seçkilərdə "Vahid Rusiya" Partiyasının qələbə qazanması münasibətilə təbrik edib. Türkiyənin baş naziri rəhbərlik etdiyi hökumətin Rusiya-Türkiyə münasibətlərinin inkişafında maraqlı olduğunu vurğulayıb.



## Uorlik tərəfləri atəşkəs rejiminə əməl etməyə çağırıb

**"ATƏT-in Minsk Qrupunun həmsədrləri atəşkəsə riayət edilməsi üçün tərəflərlə fəal iş aparırlar". "Aysor" saytının verdiyi məlumata görə, bunu ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik bəyan edib.**

O bildirib ki, hərbi əməliyyatların azaldılması danışıqları mümkün edir. Həmsədrin sözlərinə görə, tərəflər Vyana və Sankt-Peterburq razılaşmalarının reallaşdırılması, o cümlədən ATƏT missiyasının genişləndirilməsi istiqamətində birgə fəaliyyət göstərməlidir. "Nyu-Yorkda Edvard Nalbəndyan və Elmar Məmmədyarovla nizamlanmaya gətirə biləcək danışıqların davamı üçün atmosferi yaradacaq gələcək addımları müzakirə etdik", - deyə o vurğulayıb.

Həmsədrlərin yaxın zamanlarda bölgəyə səfər edəcəyini deyən C.Uorlik, bununla belə, səfərin tarixinin hələlik müəyyənləşdirilmədiyini bildirib.

Ermənistanın yeni silahları, konkret olaraq raket komplekslərini əldə etməsinin, habelə Azərbaycanda keçirilən referendumun Dağlıq Qarabağ nizamlanmasına necə təsir edə biləcəyi ilə bağlı suala isə C.Uorlik belə cavab verib: "Həmsədrlər tərəfləri danışıqlar prosesinə mənfi təsir göstərə biləcək addımlardan uzaq durmağa çağırırlar".

## Ermənistanda bəzi nazirlər dəyişdirildi

**Ermənistan prezidenti hökumətin tərkibində dəyişikliklə bağlı bir neçə fərman imzalayıb.**

Ermənistan KİV xəbər verir ki, Arpine Ovannisyan yenidən ədliyyə naziri, Armen Eritsyan fövqəladə hallar naziri, Artyom Asatryan əmək və sosial məsələlər naziri, Qranuş Akopyan isə diaspor naziri təyin edilib.

## Ermənilər işğal zonasında yenidən hərbi təlimlərə başlayıblar

**Ermənistan silahlı qüvvələri Ağdamın işğal olunmuş ərazilərində yenidən hərbi təlimlərə başlayıb.**

APA-nın Qarabağ bürosunun xəbərinə görə, erməni hərbi birləşmələri günün ikinci yarısından ağır artilleriya qurğularından istifadə edərək hərbi təlim keçir.

Təlim zamanı hərbi texnikalardan açılan atəş səsləri cəbhəyanı yaşayış məntəqələrində aydın eşidilir.

# Prokuror Cahangir Hacıyevə 17 il cəza istədi

## Dövlət ittihamçısı: "Ödənilməyən əsas borc ümumilikdə 100 milyonu keçir"

**"Beynəlxalq Bank işi"nə görə həbs edilənlərin cinayət işi üzrə məhkəmə prosesi sentyabrın 27-də davam etdirilib. Musavat.com-un məhkəmə prosesində iştirak edən müxbiri xəbər verir ki, məhkəmə prosesi hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilib. Prosesdə dövlət ittihamçısı çıxış edərək təqsirləndirilən şəxslərə cəza istəyib.**

Prokuror Fərid Nağıyev çıxışında bildirib ki, məhkəmə istintaqı zamanı Cahangir Hacıyev və digərlərinə qarşı ittihamlar tam sübuta yetirilib. Prokuror vurğulayıb ki, C.Hacıyev Müşahidə Şurasının qərarını nəzərə almadan böyük məbləğdə kreditlərin ayrılması barədə tabeliyində olan işçilərə göstərişlər verməklə qanunları pozub.

"Cahangir Hacıyev deyir ki, Müşahidə Şurasının qərarları qanunazidd olduğuna görə onu icra etməyib. Amma "Banklar haqqında" Qanuna görə, bankın fəaliyyətinə nəzarət edən orqan məhz Müşahidə Şurasıdır. Necə olur ki, Cahangir Hacıyev özü Müşahidə Şurasının qərarına tabe olmur, amma öz tabeliyindəki filiallara göstəriş verir ki, müəyyən məbləğdən yuxarı kredit vermək üçün kredit komitəsinin icazəsi lazımdır" deyə, dövlət ittihamçısı çıxışına əlavə edib. Götürülmüş kreditlərin layihələrə ayrılması barədə Cahangir Hacıyevin məhkəmədə dediklərinə gəlincə isə prokuror bunu inandırıcı hesab etmədiyini söyləyib.

**Prokuror fikrini belə əsaslandırıb:** "Cahangir Hacıyev iddia edir ki, ayrılmış kreditlər xaricdə layihələrin həyata keçirilməsinə yönəldilib. Əvvəla, həmin vəsaitlərin layihələrə yönəldiyini sübut edən heç bir fakt ortaya qoyulmadı. Digər tərəfdən isə əgər layihələrə yönəldilirdisə, niyə qaydalara uyğun olaraq layihə banka təqdim edilməyib, müzakirə aparılmayıb, həmin layihənin gəlir gətirib-gətirməyəcəyi proqnozlaşdırılmayıb? Əgər hər şey səmimi və qaydalara uyğun idisə, niyə bankın daxili qaydalarına uyğun ayrılmırdı".

**Prokuror çıxışında C.Hacıyevin özü və yaxınlarının adlarına verilmiş böyük məbləğli kreditlərdən də danışıb:**

"Qanuna görə, banka aidiyyəti olan şəxslərə güzəştli kreditlər verilə bilməz. Amma Cahangir Hacıyevin yaxınlarına təminatsız, faizsiz kreditlər verilib. Düzdür, Cahangir Hacıyev burada dedi ki, bu kreditlər bankdan səhmlərin alınması, yəni bankın kapitalının artırılmasına xidmət edib. Anlaşılmır ki, bankın bu cibindən çıxarıb, digər cibinə qoymaqla bank nə qazanır? İş materiallarından görünür ki, Cahangir Hacıyevin yaxınlarının kartlarına köçürülmüş kreditlər sonradan ABŞ-da, Avropa şəhərlərində hotellərdə, gözəllik salonlarında, istirahət mərkəzlərində xərclənib, onlayn ödənişlər həyata keçirilib, bankomatlardan nağd şəkildə çıxarılıb. Vəsaitlərin səhmlərin alınmasına yönəldilməsi versiyası bununla təsdiqlənmir".



Cahangir Hacıyev

**Prokuror bildirib ki, kreditlərin ödənildiyi barədə Cahangir Hacıyevin dedikləri də həqiqəti əks etdirmir. Onun sözlərinə görə, ilk dövrlərdə həyata keçirilən ödəmələr də başqa yeni götürülmüş kreditlərin hesabına ödənilib. Bunu da kreditlərin ödənməsi kimi qiymətləndirmək doğru deyil.**

**Dövlət ittihamçısı daha sonra deyib:** "Cahangir Hacıyev digərləri ilə əlbir olaraq 49 nəfərin adına 47 milyon manatdan artıq kredit götürüb. Həmin kreditin 29 milyon manata qədəri əsas borc olaraq hələ də ödənilməmiş qalır. Cahangir Hacıyev və yaxınlarının adına 13 milyon manat, 64 milyon dollar, 13 milyon avro və 2 milyon funt sterlinq borc hələ də ödənilməmiş qalır. Ödənilməyən əsas borc ümumilikdə 100 milyonu keçir".

Prokuror həmçinin Cahangir Hacıyevin evində axtarış zamanı götürülmüş 110 min manat dəyərində saatın, qızıl sikkələrin müsadirə olunub, ziyanın ödənilməsinə yönəldilməsini təklif edib.

Dövlət ittihamçısı çıxışında Cahangir Hacıyeva 17 il, Anar Sultanov, İlqar Abdullayev, Məmməd Cahangirov və Kənan Orucovun hər birinə 8 il, İbrahin Hüseynovla Yusif Ələkbərova 11 il və Azad Cavadova isə 12 il 11 ay cəza istəyib.

Dövlət ittihamçısı çıxışında təqsirləndirilən şəxslərin hər birinin 3 il dövlət və yerli orqanlarda rəhbər vəzifə tutmaqdan məhrum edilməsini tələb edib.

"Beynəlxalq Bank"ın nümayəndəsi isə çıxışında banka dəymiş ziyanın tam ödənilməsinin təmin edilməsini istəyib. Təqsirləndirilən şəxslərin vəkilləri çıxış üçün vaxt istəyiblər.

**Məhkəmə prosesi oktyabrın 3-nə təyin edilib.**

Qeyd edək ki, bankın sabiq rəhbəri Cahangir Hacıyev, Beynəlxalq Bankın Mərkəzi filialının direktoru vəzifəsində işləmiş Anar Sultanov, bankın Mərkəzi filialın müdiri işləmiş İlqar Abduallayev, "İnter Security" MMC-nin direktoru işləmiş İbrahim Hüseynov, Mərkəzi filialın direktoru işləmiş Yusif Ələkbərov, bankın Nəqliyyat filialının direktoru işləmiş Kənan Orucov, bankın Nərimanov filialının direktoru işləmiş, hazırda AFB Bankın sədri olan Məmməd Cahangirov və Bakı Fındıq Zavodunun direktoru işləmiş Azad Cavadov Cinayət Məcəlləsinin 179.3.1, 179.3.2 (mütəşəkkil dəstə tərəfindən külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 309.2 (vəzifə səlahiyyətlərini aşma ağır nəticələrə səbəb olduqda), 313-cü (vəzifə saxtakarlığı), 228.1 və 228.4-cü (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə ittiham olunur.

**İlkin MURADOV**

# İlhamə Quliyevanın oğlu məhkəmə qarşısında

## "Mehribanı təhrik edən o olub..."

**Bakı Ağır Cinayətlər Məhkəməsində mərhum xalq artisti İlhamə Quliyevanın köməkçisi Mehriban Hüseynovanın cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**



Orxan Nadirov

APA-nın məlumatına görə, hakim Səbuhi Hüseynovun sədrliyi ilə keçirilən prosesdə İlhamə Quliyevanın oğlu Orxan Nadirov şahid qismində ifadə verib. O, istintaq zamanı verdiyi ifadəni təsdiq edərək bildirib ki, Mehriban Hüseynovada təqsir görmür: "Vüqar Bəkirov dedi ki, saxta vəsiyyətnamə var, onu təsdiqlətmək istəyirlər. Vüqar Mehriban Hüseynovanın səs yazısını təqdim etmişdi. Səs danışığında Mehriban Vüqardan dərman istəyir. Vüqar bunları mənə deyəndən sonra İlhamə Quliyevaya da dedi. İstintaq zamanı ifadə verəndə əsəbi idim. Fikirləşirdim ki, İlhamə Quliyeva ilə münasibətimizi Mehriban pozub. Amma sonra gördüm ki, Mehriban zəif bənd kimi qurban gedib. İlhamə xanım da əsəbi adam idi, tez özündən çıxırdı. Anamla münasibətim may ayında pozulmuşdu. Həmin vaxt o, əməliyyat olunmuşdu. Zəng edib danışmışdım. Vüqar Bəkirovun isə mənimlə şəxsi düşmənçiliyi var imiş. Ona cinayət işi açılanda məni də şərləmək istəyirdi. O həbs olunandan sonra mən çox şeyi bilmişəm. Vüqar hər şeyi mənə başqa cür deyirdi. Bu plan da Vüqarın idi. Sadəcə, Mehribanı verdi qabağa. Mehribanı da təhrik edən o olub".

Prokuror isə onun istintaq zamanı verdiyi ifadə ilə indiki arasında ziddiyyət olduğunu deyib. O. Nadirov ifadəsinin bəzi hissələrindən imtina etdiyini deyib. Bildirib ki, M. Hüseynovaya qarşı qərəzli ifadə verib.

Proses oktyabrın 4-də davam edəcək.

Xatırladaq ki, prosesdə adı hallandırılan Vüqar Bəkirov İlhamə Qulivevanın oğlu Orxan Nadirovun dostu olub.

V.Bəkirov bu ilin may ayında Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə təqsirli bilinərək Yasamal Rayon Məhkəməsinin hökmü ilə 4 il müddətinə azadlıqdan məhrum edilib.

Ötən prosesdə məhkəmədə ifadə verən V. Bəkirov Mehriban Hüseynovanın İlhamə Quliyevanı öldürmək üçün ona müxtəlif dərmanlar almağı tapşırdığını açıqlayıb.

Qeyd edək ki, M. Hüseynova Cinayət Məcəlləsinin 29.180.3.2-ci (külli miqdarda soyğunçuluq etməyə cəhd) maddəsinə əsasən ittiham olunur. O, İ. Quliyevanın şikayəti əsasında saxlanılıb.

İ.Quliyeva bu il fevralın 25-də vəfat edib.




# Ölkədə analoq televiziya yayımı dayandırılır

## Noyabrın 1-dən Bakı və Abşeronda, dekabrın 1-dən isə bölgələrdə analoq TV yayımının dayandırılmasına qərar verildi

**Sentyabrın 27-də Azərbaycan Milli Televiziya və Radio Şurasının (MTRŞ) növbəti iclası keçirilib. Şuradan verilən məlumata görə, iclasda rəqəmli yayıma keçidlə bağlı mövcud vəziyyət müzakirə olunub.**

İclasda Azərbaycan prezidentinin 20 sentyabr 2016-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 5.1.7-ci bəndinə uyğun olaraq Bakı və Abşeron yarımadasında yerüstü yayımlanan ümumölkə TV proqramlarının analoq yayımının 01 noyabr 2016-cı il tarixdən, respublikanın digər bölgələrində yayımlanan TV proqramlarının yerüstü analoq yayımının 1 dekabr 2016-cı il tarixdən etibarən dayandırılması barədə qərar qəbul edilib.

Azərbaycan Respublikası ərazisində yerüstü yayımlanan TV proqramlarının analoq TV qəbulediciləri ilə izlənilməsi üçün DVB-T standartına uyğun olan dekoderlərin ("Set-Top-Box"-ların) istifadəsi ilə bağlı maarifləndirmə tədbirlərinin aparılması teleradio yayımçılarına və digər müvafiq qurumlara, eyni zamanda Azərbaycan Respublikasında fəaliyyət göstərən sahibkarlara DVB-T standartına uyğun olan dekoderlərin ("Set-Top-Box"ların) satışının təşkilinin təmin edilməsi tövsiyə edilib.

Məsələ ilə bağlı MTRŞ vətəndaşlara müraciət edib. Müraciətdə bildirilir ki, Milli Televiziya və Radio Şurasının 27 sentyabr 2016-cı il tarixli 10 saylı qərarına uyğun olaraq 1 noyabr 2016-cı il tarixdən Bakı şəhəri və Abşeron yarımadasında analoq TV yayımı dayandırılacaq.

Növbəti mərhələdə - 1 dekabr 2016-cı il tarixdən digər bölgələrdə də analoq TV yayımının dayandırılması həyata keçiriləcək.

Televiziya tamaşaçılarından mövcud analoq TV qəbulediciləri vasitəsilə rəqəmli TV yayımının izlənməsi üçün tələb olunan zəruri avadanlığın - dekoderlərin ("Set-Top-Box"-ların) əldə olunması xahiş olunur.

Rəqəmli TV yayımının əsas aşağıdakı üstünlükləri var:

1. Veriliş traktında və TV siqnallarının yazılışı zamanı manеə dayanıqlığının yüksək olması.
2. TV vericisinin gücünün azaldılması imkanı.
3. Eyni bir tezlik zolağında veriləcək TV proqramlarının sayının kəskin artması.
4. Təsvirin və səsin canlandırılma keyfiyyətinin artması.
5. Yeni açılış standartı (yüksək aydınlıqlı televiziya) üzrə TV sisteminin yaradılması.
6. Studiya aparatlarının funksional imkanlarının genişləndirilməsi.
7. TV yayım siqnalının tərkibində müxtəlif əlavə məlumatların verilməsi imkanı.
8. İnteraktiv TV yayım sisteminin yaradılması. Bu zaman tamaşaçı veriləcək TV proqramlarına müdaxilə etmək imkanı qazanır.
9. Verilişlərin arxivləşdirilməsi və yazılması imkanı.
10. Verilişin dilinin və subtitrlərin seçilməsi imkanı.

YENİ MÜSAVAT
N 213 (6534) 28 sentyabr 2016



# Maliyyə nazirindən ziddiyyətli açıqlamalar

## Büdcə gəlirləri azalırsa, maaş və pensiyalar hansı vəsait hesabına artırılacaq?

**Gələn ilin dövlət büdcəsində neftdən daxilolmaların hesablanması üçün neftin 1 barelinin baza qiyməti 40 dollardan götürülüb". Maliyyə naziri Samir Şərifovun bu açıqlaması mətbuatda geniş müzakirələrə səbəb olub. Büdcə gəlirlərinin azalacağını deyən Samir Şərifov gələn il xərclərə daha çox qənaət ediləcəyini vurğulayıb. Maliyyə nazirinin bu açıqlaması ilə ziddiyyət təşkil edən başqa bir açıqlaması isə əmək haqlarının və pensiyaların artırılması ilə bağlı olub.**

2017-ci il dövlət büdcəsinin əsas prioritetlərini də açıqlayan nazir bildirib ki, növbəti ildə sosial müavinətlər və dövlət sektorunda çalışanları maaşları arta bilər: "Bilirsiniz ki, cari ildə dövlət sektorunda çalışanların əmək haqları artırılıb. Gələn ildə də bu addımların davamlı olması üçün biz büdcədə maliyyə təminatı yaratmalıyıq. Digər tərəfdən, cari ildə sosial müavinətlərin, pensiyaların, təqaüdlərin və digər sosial ödənişlərin artımı baş verib. Bu cür artımların gələn ildə də baş verməsi üçün maliyyə təminatı nəzərdə tutulub. Digər tərəfdən, unutmamalıyıq ki, bizim gəlirlərimiz əhəmiyyətli dərəcədə azalıb. Biz çalışmalıyıq ki, xərclərimizlə gəlirlərimiz ayaqlaşsın. Bunun əksi baş verərsə, biz risklərlə üz-üzə qalarıq. Gələn il xərclər siyasətimiz daha sərt olacaq. Bu, o deməkdir ki, daha səmərəli xərclərə üstünlük veriləcək".

Bəs görəsən, dünya bazarındakı hazırkı iqtisadi proseslər fonunda gələn ilin büdcəsində neftin dünya bazarındakı qiymətinin 40 dollardan hesablanması doğru addımdırmı? İkincisi, büdcə gəlirlərinin azaldığı bir dövrdə hökumət maaş və pensiyaların artırılmasını hansı vəsait hesabına həyata keçirəcək?

**"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, neftin qiymətinin 40 dollardan hesablanması normal ssenaridir:** "Gələn il üçün neftin qiymətinin 40 dollardan hesablanması nəzərdə tutulub və bununla bağlı rəsmi açıqlamalar verilib. Çox güman ki, Azərbaycan hökuməti də qonşu ölkələrin müvafiq addımını nəzərə alaraq neftin qiymətini 40 dollardan götürüb. Bu, normal bir ssenaridir, nə optimistdir, nə də pessimist. Gələn il neftin qiymətinin elə 40 dollar civarında olması gözlənilir. Ancaq dünya bazarında tələtümlər də ola bilər, mən ilin əvvəlində neftin qiymətinin 40 dollardan da aşağı düşəcəyini güman edirəm. Ancaq ortalama qiymətin 40 dollar civarında olması ehtimalı böyükdür. Xərclərin azaldılmasına gəlincə, bu artıq Azərbaycan hökumətinin mütləq atmalı olduğu addımlardan biridir. Çünki gəlirlər azaldıqca, hökumət əlavə gəlir mənbələri yarada bilmirsə, xərcləri azaltmalıdır. Gələn il Neft Fondunda transferlərin 5 milyard manat azalacağı məlumdur".

**Əmək haqqı və pensiyaların artmasına gəlincə, N. Cəfərli bildirdi ki, təkcə Samir Şərifovun açıqlaması deyil, qanunun tələbi maaş və pensiyaların artırılmasını şərtləndirir:** "Azərbaycanda qüvvədə olan qanuna görə, ilin əvvəlində büdcə təşkilatlarında çalışanların və təqaüd alanların maaşları və təqaüdləri rəsmi inflyasiya səviyyəsi qədər indeksləşdirilir. Yəni bu qanunun tələbidir. Maliyyə naziri istəsə də, istəməsə də bu artım olmalıdır. Məhz bu baxımdan bu ilin sonunda hansı inflyasiya rəqəmi elan olunacaqsa, 2017-ci ilin əvvəlində maaşlar və təqaüdlər həmin rəsmi inflyasiya səviyyəsində artırılacaq".

❑ Nərgiz LİFTİYEVA

**"Avesta" Konserninin prezidenti Hacı İbrahim Nehrəmli ailə üzvləri ilə bərabər konstitusiyaya təklif olunan əlavə və dəyişikliklərlə əlaqədar Azərbaycanda keçirilən ümumxalq səsverməsində (referendum) iştirak edib.**
**Hacı İbrahim və onun ailə üzvləri - xanımı və 2 oğlu Bilgəh qəsəbəsində yerləşən 28 saylı Sabunçu üçüncü seçki dairəsinin 18 saylı seçki məntəqəsində səs veriblər. Prosesin ən maraqlı cəhəti isə onun məntəqəyə gül çələngi ilə gəlməsi olub.**

# "İstərdim ki, üç vitse-prezidentdən biri mən olum"

## Hacı İbrahim Nehrəmli referenduma gül çələngi ilə getməsinin məqsədini açıqladı: "Dedim ki, bu gözəl güllərə baxa-baxa seçkini keçirin, səsləri sayın"




*"Yeni Müsavat"a müsahibəsində İ.Nehrəmli səsvermə günündəki bu qeyri-adi jesti, habelə gündəmdəki bəzi mövzular ətrafında danışdı.*

**- İbrahim bəy, səsverməyə bu cür qatılmaq öz ideyanız idi, ya piar menecerlərinizin tövsiyəsi ilə belə etdiniz?**

- Mən hər bir hadisəyə qeyri-adi münasibət göstərirəm. İçimdən gəldi ki, bahalı maşınımı - "Rolls Royce" - sürüm, həyat yoldaşımı və uşaqlarımı da götürüm, gedək ailəlikcə, bir yerdə səs verək. İstədim ki, hamıdan fərqli olsun. Referendum, konstitusiya Azərbaycan üçün çox vacibdir. Ölkəmiz üçün vacib olan başqa bir məqam isə onun sabitliyidir. Stabillik olan yerdə pul da olur, yaxşı yaşayış da. Nəticədə ölkədə turizm də inkişaf edir, ölkədə xarici investisiya dövriyyəsi artır ki, bu da çox müsbət haldır. Ona görə də prezidentimizə bu səlahiyyətləri vermək çox lazımlı addımdır. Mən bunu ilk gündən alqışlayırdım. Ona görə də ürəklə getdim, gül çələngimi də apardım özümlə.

**"Mən bu ölkədə öz əməyi ilə, rüşvətsiz milyarder olan iş adamıyam - sərvətim, pulum bir neçə milyard həcmindədir"**

**"Azərbaycanlı iş adamlarının bu gün yaşadığı bütün problemlərin başında banklar dayanır"**

**"Beynəlxalq Bank məsələsində Samir Şərifov da məsuliyyət daşıyır, başqa səlahiyyətli şəxslər də"**

**- Gül çələngini kimə verdiz içəridə?**

- Konkret kiməsə vermədim ki. Dedim ki, salam, güllə gəlmişəm, olarmı? Dedilər, buyurun, elə bir qanun yoxdur ki, siz içəri gül çələngi ilə girə bilməzsiniz. Mən də çələngi götürüb girdim içəri, qoydum ordakı guşənin qabağına. Dedim ki, bu gözəl güllərə baxa-baxa seçkini keçirin, səsləri sayın, hesablayın, ovqatınız xoş olsun.

**- Yəni bunun məntiqi nə idi ki?**

- İçəri girən hər bir kəs bu gülləri görüb, əhval-ruhiyyəsini yaxşılaşdırsın. Məntiq bu idi. Amma yaxşı bir səsvermə idi. Şəffaf, ədalətli... Səs vermək istəyirsən? Al bülletenini, gir içəri, səsini ver. Bir adama yaxınlaşıb söz deyən yox idi.

**- Maşını da özünüz sürüb gəlmişdiz seçkiyə?**

- Xeyr. Sürücüm, köməkçim vardı. Arxamda da oğullarım, xanımım maşınla gəlirdilər. Dörd maşınla getmişdik. Hərə öz maşını ilə gəlmişdi seçkiyə.

**- Bu mənzərə ilə mesaj vermək istəyirdiz ki, bankrot olmamısız?**

- (Gülür) Əsla... Mən niyə bankrot olum ki? Bu gün Maliyyə Nazirliyinin hesabatlarına görə, mənim 2 milyard dəyərində əmlakım var. Əslində mən milyarderəm, amma tam rəsmiləşdirməmişik. Azərbaycanda iş adamı olaraq rüşvətsiz, öz ağlımla, zəhmətimlə özümə o sərvəti toplaya bilmişəm. Təkcə Xəzər adalarının 1 milyard 251 milyon 35 min 500 manat dəyəri var.

**- Amma Xəzər adalarını sata bilmirsiz də..**

- Niyə satıram ki? Xəzər adaları üçün oktyabr ayında investorların hamısı gələcək. 6 investor gələcək, görüşəcəyik, noyabr ayında işə başlayacağıq.

**- Hazırda Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyevin məhkəməsi gedir. Sizin də o banka 400 milyon manat borcunuz vardı...**

- Artıq yoxdur. Aqrokredit Banka keçmişəm, ilbəil ödəmələrimi edirəm. Mənim kreditlərim 2019-2020-ci ilə qədərdir. Onları da yavaş-yavaş ödəyəcəm. Yəni mənim heç bir bank ödəməsində gecikməm yoxdur, heç bir banka da ödənməmiş borcum yoxdur.

**- Yəni sizi Cahangir Hacıyevin məhkəməsinə şahid, zərərçəkmiş qismində çağırmayacaqlar?**

- Xeyr. Mənim cinayət işim olmadı axı. Mənim kreditlərimin vaxtı keçməmişdi. Mənim cəmi 1 milyon 350 min manat vaxtı keçmiş kreditim vardı. Gedib 1 milyon 500 min manat ödədim.

**- Cahangir Hacıyevin məhkəməsini izləyə bilirsiz?**

- İzləyirəm.

**- Orda Cahangir Hacıyev bəyanat verir ki, "Samir Şərifov da mənimlə birgə müttəhimlər kürsüsündə oturmalıdır". Siz prosesləri bilən adamsız. Nə dərəcədə doğru çağırışdır?**

- O, Cahangir Hacıyevin öz işidir. Bu, onların daxili mətbəxi idi. Mən də o mətbəxi bilmirdim. Ona görə də indi fikir bildirib, müdaxilə edə bilmərəm. Amma bircə onu deyə bilərəm ki, Beynəlxalq Bank hamımızı "vurdu". Təkcə Beynəlxalq Bankın yox, bütün bank sisteminin bir problemi var: Azərbaycanda bank sistemi öz öhdəliklərini yerinə yetirmir. Azərbaycanlı iş adamlarının bu gün yaşadığı bütün problemlərin başında banklar dayanır. Əlbəttə ki, burda maliyyə naziri də məsuliyyət daşıyır, başqaları da. Çünki onlar nəzarət etməlidirlər ki, banklar öz öhdəliklərini yerinə yetirsinlər. Onlara bunu söyləyən yoxdur. Məsələn, bank gəlib səndən 100 milyonluq obyekti girov götürür. Deyir ki, 80 milyon verməliyəm bunun əvəzində. Amma gətirib 8 milyon verir, sonra da pul vermir. Sən də gəlib deyirsən ki, qardaş, mən beton tökdürmüşəm, işim yarımçıq qalıb, nə edim? Deyir, gəl borcunu ödə. Ödəyə bilmirsən. O da ilin axırında gəlib sənə deyir ki, 2 milyon borcun yaranıb, gəl sənə kredit ayırım. Sonra da yazır ki, Hacı İbrahim 2 milyon ödədi. Bununla da sənin 10 milyon borcun oldu. O biri il yenə 2 milyon ayırır. Belə-belə sənin borcun artan silsilə şəklində gedir. Amma bu, iş adamını bankrot etdirmək, evini yıxmaq deməkdir. Axırda da aparıb onu cinayətkar gününə salır, üstünə maddə qoyurlar ki, sən dələduzluq etmisən, qanunu pozmusan.

**- Sizcə, indiki mərhələdə bu problem həll olunubmu?**

- Xeyr, Azərbaycanda bank sistemi düzəlməyib, düzəlməyəcək də. İnanmıram ki, hansısa bank gəlib deyə ki, mən öz öhdəliyimi yerinə yetirəcəm. Hələ bizdə o mədəniyyət inkişaf etməyib. Ona görə də banklarımız pis vəziyyətdədir. Onların iş adamına yanaşma tərzi düz deyil. Məmura yanaşma tərzi belədir ki, əgər o, rüşvət alırsa, banditdirsə, oğrudursa, çox ağıllı adamdır. Amma iş adamıdırsa, banditdir, oğrudur, quldurdur. Bu cür baxışla iş adamı ölkədə heç cür inkişaf edə bilməz.

**- Bir iş adamı olaraq yaşadığınız bu problemlə bağlı dövlət başçısına müraciət etmək fikriniz varmı?**

- Ölkə rəhbərliyi təkdir. Nə qədər adamı tutsun, cəzalandırsın? Biz ölkə rəhbərliyinə yardım etməliyik. Düşünürəm ki, bu referendumdan sonra çox adam ağıllanar, ağlını başına yığar, məsuliyyət hiss edər.

**- Referendumdan sonra 3 vitse-prezidentin olacağı gözlənilir. O 3 nəfərin arasında kimləri görmək istəyərdiz?**

- Birinci vitse-prezident yox, amma ikinci vitse-prezident olmaq istərdim. İş adamı kimi.

**- Bəs birinci vitse-prezident olaraq kimi görmək istəyərdiz?**

- O, mənim işim deyil. Cənab prezident kimi qoymaq istəsə, biz də onu dəstəkləyəcəyik. Amma vitse-prezidentlərdən birini iş adamlarından seçsəydilər, yaxşı olardı. Bununla da ölkədəki iş adamları özlərinə bir güvən tapardılar. Çünki bu halda onların qayğılarını, problemlərini prezidentə birbaşa çatdıran biri olacaq, onlar barəsində yanlış rəy çatdırmayacaq, yalan məlumat verməyəcəklər.

**- Vitse-prezident olsanız, öncə hansı işləri görər, hansı islahatları edərsiniz?**

- Cənab prezident qarşıma hansı vəzifəni qoysa, onu layiqincə yerinə yetirərdim. Bununla da həm cənab prezidentin, həm xalqın, həm də iş adamlarının etimadını doğruldardım. Əslində mən bu vəzifəni istəmirəm. Sadəcə, vitse-prezidentlərdən biri iş adamı olsun ki, iş adamlarına dəstək olsun.

❑ Azər AYXAN

# Mehman Əliyevdən islahatlarla bağlı ilginc açıqlamalar, ciddi anonslar

## "Turan" informasiya agentliyinin direktoru: "Əsl keçid dövrü bundan sonra başlayır"

**Konstitusiyaya dəyişikliklər edilməsi məqsədilə sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsindən sonra Azərbaycanda nələrin baş verəcəyi barədə iqtidar və müxalifətin fikirləri bir-birindən kəskin şəkildə fərqlənir. Rəsmi şəxslər və hakim partiyanı dəstəkləyən dairələr əmindir ki, referendum ölkədə ciddi islahatlara gedilməsini stimullaşdıracaq. Son illərdə davamlı şəkildə, özü də inamla islahatlar anonsu ilə çıxış edən "Turan" informasiya agentliyinin direktoru, siyasi təhlilçi Mehman Əliyevlə söhbətimiz də referendumdan sonrakı Azərbaycan haqqındadır.**

***- Mehman bəy, uzun müddətdir ki, siz Azərbaycanda ciddi islahatlara start veriləcəyini deyirdiniz. İndi isə Azərbaycan iqtidarının təmsilçiləri referendumdan sonra islahatlara sürət veriləcəyindən bəhs edirlər. Sizin budəfəki gözləntiləriniz nədən ibarətdir, rəsmilərlə mövqeyiniz üst-üstə düşürmü?***

- Üst-üstə düşür. O mənada ki, mən əvvəldən demişəm ki, referendum birbaşa islahat prosesinə bağlı məsələdir və bunu ayırmaq lazım deyil. İlk gündən bildirmişəm ki, referendum bunun tərkib hissəsidir. Sadəcə olaraq, mən islahatlarla bağlı "Yol xəritəsi"ni gözləyirdim. Hesab edirdim ki, bu sənəd referenduma qədər artıq ictimaiyyətə təqdim olunacaq. Bu, niyə baş vermədi? Deməli, həmin o sənədin hazırlanmasında Amerikanın məşhur konsaltinq şirkəti iştirak etmişdi. Həm də bizim hakimiyyət həmin "Yol xəritəsi"ni özünə uyğunlaşdırmağa çalışıb, bəzi şeyləri ixtisara salıblar, bəzi şeyləri yarımçıq qoyublar. Yəni sənədə xeyli düzəlişlər ediblər. Faktiki olaraq islahatların gələcəkdə uğurlu keçməməsi üçün zəmin yaradıblar. Bu narazılıq bildirilmişdi. Amma son olaraq həmin sənəd beynəlxalq maliyyə qurumlarına təqdim olunmuşdu və iki həftə öncə ABŞ-da danışıqlar gedib, həmin sənəd Ümumdünya Bankı, Beynəlxalq Valyuta Fondu ilə müzakirə olunub. Mən belə başa düşürəm ki, Azərbaycan tərəfinə iradlar bildirilib və yenə də o düzəlişlər bərpa olunur. Yəni mənfi düzəlişlər aradan qaldırılır, sənəd normal vəziyyətə gətirilir, məncə, tərəflər artıq bu mənada razılığa gəliblər, sənədi xeyli yaxşılaşdırıblar.

***- "Yol xəritəsi"ndə əsasən nədən bəhs olunur? İslahatlar haradan başlanılacaq, proses haraya qədər davam etdiriləcək?***

- Azərbaycan tərəfi daha çox çalışır ki, müəyyən iqtisadi islahatlara, müəyyən liberallaşmaya getsin, amma bu sahəyə nəzarəti qalsın. İkincisi də indiki məqamda siyasi islahatlar baş verməsin. Ancaq digər tərəf deyir ki, siyasi islahatlar getməsə, iqtisadi islahatların da həyata keçirilməsi mümkün deyil, ona görə bunlar paralel getməlidir. İqtisadi islahatlarda da daha çox şəffaflıq, korrupsiyaya qarşı mübarizə, sadələşdirmə, sahibkarlıq üzərindən nəzarəti və monopoliyanı götürmək, azad sahibkarlığa şərait yaratmaq məsələləri qoyulub. Eyni zamanda azad məhkəmə sisteminin formalaşması, vətəndaş cəmiyyətinin bu proseslərdə fəal iştirakı, hökumətin üstündə nəzarəti kimi məsələlər də əksini tapır. Ona görə də fikir verirsinizsə, son vaxtlar hökumət "Açıq hökumət tərəfdaşlığı" vətəndaş cəmiyyəti platformasını yaratdı. Bu da tələblərdən biri idi, hökumət də öz QHT-ləri ilə bunu yaratdı. Bəzi QHT-lər də etiraz bildirdilər ki, yalnız hökumətyönlü təşkilatlar ora daxil edilib. Məncə, bu problem də həll olunacaq.

***- Deməli, ABAD-ın yaradılması da islahatlar paketinin tərkib hissəsidir?***

- Təxminən hə. Fakt budur ki, hökumət buna gedir. Hökumət artıq Avropa Parlamentinə yenidən qayıdır. AŞ-in ölkəyə qayıtması məsələsi də ciddi şəkildə gündəmdə durur, o da olacaq. Bütün istiqamətlər üzrə dəyişikliklər qaçılmazdır, bu, baş verəcək.

***- Belə qənaətə gəlmək olarmı ki, ABŞ başda olmaqla, aparıcı güclərin, Venesiya Komissiyasının yalnız sonda açıqladığı mənfi rəyi çıxmaq şərtilə, Avropa institutlarının referendumla bağlı sükutunun səbəbi Bakı ilə aparılan danışıqlarla əlaqədar imiş?***

- Bəli. Ümumiyyətlə, sonuncu dəfə hakimiyyətə çox ciddi təpkilər iyulun 15-də olub. 18-i referendum elan olunandan sonra Azərbaycan hakimiyyətinə təpki olmayıb. Əslində vəziyyətə baxsaq, məntiqlə daha çox təpki olmalı idi. Venesiya Komissiyasının rəyi göstərir ki, sanki bu, hakimiyyətin bir əldə daha çox cəmləşməsi məsələsidir, antidemokratikdir. Amma fakt odur ki, 18 iyulda referendum qərarı elan olunandan sonra təpki, bununla bağlı tənqidlər olmayıb. Sonuncu tənqidlər həmin Vaşinqtonda maliyyə qurumları ilə aparılan danışıqlardan sonra başlandı. Yəni narazılıq ortaya çıxanda yenə də siyasi təzyiqlər başlandı ki, "siz islahatlar paketini istədiyimiz formada qəbul etməsəniz, biz də belə edərik". Bu, bir. İkincisi, referendumun özünün yarılegitimlik məsələsi yenə də ortalığa gəldi. Necə ki, 2015-ci ildə parlament seçkiləri yarılegitim qiymətləndirildi, indi də həmin məsələ gündəmə gələ bilər. Yəni vəd verilsə, əməl olunmasa, sabah məsələ qoya bilərlər ki, referendum qeyri-demokratik keçirilib.

***- Dediklərinizdən bu nəticəni çıxartmaq olarmı ki, hakimiyyət Qərb dairələri ilə danışıqlar aparıb razılaşma əldə etdiyi üçün referendumöncəsi rəyin verilməsi üçün Venesiya Komissiyasına müraciət etməyib?***

- Yox, məncə, burada məsələ belə qoyulmamışdı ki, ciddi nəzarət olsun. Çünki biz gördük ciddi müşahidəçi də yox idi. Prinsipcə, referendumun bu formada keçirilməsinə heç kim etiraz etməyib. Ancaq sabah vədlərdən qaçsalar, başqa mövqe sərgilənsə, onda mexanizm işə salına bilər ki, referendum qeyri-legitimdir, hətta Venesiya Komissiyasının rəyi var. Yəni ehtiyat planı kimi bunu həmişə fırlada bilərlər.



***- Deməli, Qərb bundan sonra da prezident İlham Əliyevlə yola davam etməyə qərar verib, eləmi?***

- Bəli, çünki İlham Əliyev söz verib ki, islahatlar aparacaq. Referendumda bir məsələ də var: daha çox səlahiyyət verilir, eyni zamanda daha çox məsuliyyət götürülür. Yəni artıq sabah deyilsə ki, parlamentdə müzakirə keçmir, alınmır, qərar qəbul edə bilmirik - hakimiyyət həmişə oynayır axı, bunları edir - indi də deyir "buyur, parlamenti, ya Nazirlər Kabinetini buraxa bilərsən". Bununla hakimiyyət daha çox əldə cəmləşir, ancaq məsuliyyət də ondadır.

***- Ancaq ölkə müxalifəti referendumdan sonrakı Azərbaycan haqqında çox pessimist mövqedədir, ölkənin quyunun dibinə yuvarlandığı təsəvvürünü yaradırlar, referendumdan "xoxan" obrazı yaradırlar. Amma sizin dedikləriniz tamamilə əksini düşünməyə əsas verir...***

- Əgər hökumət özü bu gün fəlakətin içindədirsə... Hakimiyyətin içində təşviş var. Beynəlxalq Valyuta Fondundan və digərlərindən 10 milyard vəsait almaq istəyirlər, bu vaxta qədər o pulu ala bilmirlər, investisiyalar gəlmir, əksinə, azalır, vəziyyət yaxşılığa doğru yox, pisliyə doğru gedir. Ölkə bata-bata gedir. Ona görə də ya çevik şəkildə dəyişikliklər olmalıdır, ya da inqilab olmalıdır, başqa yol yoxdur. Hakimiyyətin islahatlara getməkdən başqa çıxış yolu yoxdur. Əgər hakimiyyət xalqla təkbətək üz-üzə dursaydı, bəlkə də təzyiq edər, tutardılar, gücün hesabına vəziyyəti olduğu kimi saxlayardılar. Axı burada beynəlxalq mövqe, beynəlxalq təpki var, o, hər şeydən daha ciddidir. Bu gün ki biz deyirik islahatlarla bağlı plan hazırlanır və sair, bu, nə hakimiyyətin, nə də Azərbaycan xalqının istəyindən irəli gəlir. Bu, birbaşa Qərbin, ABŞ-ın qərarıdır ki, "sən bunu etməlisən, qurtardı getdi" və bunu elətdirirlər.

> **"Böhran onu göstərdi ki, indiki hökumət müasir dövrdə ölkəni, iqtisadiyyatı idarə etmək imkanına malik deyil, deməli..."**

***- İlin sonuna qədər növbədənkənar prezident seçkilərinin keçiriləcəyi barədə məlumatlar var. Daha sonra isə yeni parlamentin formalaşdırılması ilə bağlı qərarın veriləcəyi haqda mətbuata məlumatlar sızdırılır. Bu, nə dərəcədə realdır və növbədənkənar seçkilərə ehtiyac varmı?***

- Məncə, indiki mərhələdə buna ehtiyac yoxdur. Çünki indi struktur dəyişiklikləri getməlidir. Ona görə də nə prezident, nə də parlament seçkilərini keçirməyə ehtiyac qalmır. Parlament prezidentə kifayət qədər sadiqdir, hər hansı qərarı qəbul etdirmək problem deyil. Məncə, diqqət struktur dəyişikliklərinə yönəlməlidor. Çünki vitse-prezidentlər institutu tətbiq olunur, daha sonra hökumətdə ciddi dəyişikliklərə gedilməsi, yeni islahatçı komandanı formalaşdırmaq lazımdır.

***- Tezliklə yeni baş naziri görə biləcəyikmi?***

- Məncə, Artur Rəsi-Zadə 1-ci vitse-prezident olacaq. Amma onun yerinə işlək bir adam gətirəcəklər ki, hökumətin işini irəli aparsın. Çünki əsas iqtisadi blokdur, prosesi işə salmaq üçün yeni adamlar lazımdır. Bu sahədə problem var. Böhran onu göstərdi ki, indiki hökumət müasir dövrdə ölkəni, iqtisadiyyatı idarə etmək imkanına malik deyil. Əgər bu boyda institutlar böhranın gəlməsini görmədilərsə, bununla bağlı tədbir görə bilmədilərsə, bu, o deməkdir ki, bunlar getməlidir, bu, hökumət deyil. Ümumilikdə isə bu referendumda ən mühüm, mərkəzi məsələ 1-ci vitse-prezidentlikdir.

***- Bu qənaətə gəlmək olarmı ki, artıq ən yüksək səviyyədə bununla bağlı qəti qərar verilib?***

- Bu, təkcə onların qərarı deyil. Bura ekspertlər gəlib, rəylər veriblər ki, bu komanda ilə islahat aparmaq mümkün deyil. Bu komanda o biliklərə malik deyil.

> **"İki həftə öncə ABŞ-da danışıqlar gedib; "Yol xəritəsi" üzərində iş gedir"**

***- Mehman bəy, bəs uzun illərdir barəsində danışılan koalision hakimiyyət, yaxud da cəmiyyətdə təcrübəsi, savadı ilə tanınan simaların, vətəndaş cəmiyyəti təmsilçilərinin yeni komandaya cəlb olunması baş verə bilərmi?***

- Məncə, gözləmək olar ki, müəyyən adamlar orada iştirak etsin. Hansılar ki, bu gün QHT-dədirlər, ancaq daha çox bitərəf mövqedədirlər, daha çox onların cəlb olunması realdır. Ola bilsin ki, sabah başqaları da əməkdaşlıq formasında cəlb olunsun. Referendumda qoyulan məsələlər keçid mexanizmidir. Bundan sonra keçmə mərhələsi, keçid dövrü başlayacaq. Əsl keçid dövrü bundan sonra başlayır.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 213 (6534) 28 sentyabr 2016



# Prezident referendumun nəticələrindən danışdı, xalqa təşəkkür etdi

## İlham Əliyev: “Azərbaycan tarixində indiki qədər güclü, indiki qədər azad və müstəqil olmayıb”

**“Referendum bir daha bizim siyasətimizə xalq tərəfindən böyük etimadın göstəricisidir. Bu etimad bizə güc verir. Bu etimad olmasaydı, ölkəmizin milli maraqlarını beynəlxalq müstəvidə müdafiə etmək çətin olardı. Bizim siyasətimiz milli maraqlar üzərində qurulub. Bizim siyasətimizin təməlində Azərbaycan xalqının maraqları, milli dəyərlər durur. Bu gün istənilən beynəlxalq forumda Azərbaycan öz sözünü deyir, öz yolu ilə gedir, müstəqillik, ləyaqət yolu ilə gedir, heç kimin qarşısında gözükölgəli deyil, heç kimin diktəsi ilə oturub-duran deyil. Bu siyasət xalq tərəfindən dəstəklənir, bəyənilir və beynəlxalq aləmdə bizə çox böyük şöhrət qazandırıb”. APA-nın məlumatına görə, bunu Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 27-də Sumqayıtda Heydər Əliyev Mərkəzinin açılışında deyib.**

Dövlət başçısı bildirib ki, keçirilən referendum ölkənin gələcək inkişafını müəyyən edir: “Azərbaycan xalqının mütləq əksəriyyəti referenduma birmənalı şəkildə "hə" deyib, bizim təkliflərimizi dəstəkləyib, bəyənib. Buna görə mən bir daha bütün Azərbaycan xalqına dərin minnətdarlığımı bildirmək istəyirəm.

Mən son 13 il ərzində çalışmışam ki, bu yüksək etimadı öz işimlə, fəaliyyətimlə doğruldum. Şadam ki, bu gün Azərbaycan doğrudan da dünyada seçilən ölkələrdəndir. Təhlükəsizlik təmin edilir, Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşayır, beynəlxalq nüfuz artır, ordu quruculuğu uğurla gedir. Aprel döyüşləri bir daha Azərbaycan Ordusunun gücünü göstərdi. Baxmayaraq ki, dünyada iqtisadi böhran davam edir, Azərbaycan iqtisadi sahədə inamla inkişaf edir, bütün sosial layihələr icra olunur. Enerji siyasətimiz nəinki ölkəmiz üçün, regionumuz, dünya üçün böyük əhəmiyyət daşıyır. Azərbaycan enerji təhlükəsizliyinin təmin edilməsində lider dövlətdir. Biz nəhəng sənaye layihələrini icra edirik.

Bildiyiniz kimi, Azərbaycanda bu il “Multikulturalizm ili” elan edilib. Ölkəmizdə bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bax, budur bu gün Azərbaycan reallıqları. Xalq bu reallıqları yüksək qiymətləndirir və referendumun nəticələri məhz buna əsaslanır. Bizə gələcəkdə kimsə xaricdən nə isə diktə etmək istəyəndə iki dəfə fikirləşməlidir. Birincisi, biz heç kimlə diktat dili ilə danışmırıq. Bu yanaşmanı qəbul etmirik. İkincisi və ən önəmlisi, biz heç kimdən asılı deyilik. Bizim apardığımız siyasət bundan ibarətdir ki, ancaq öz gücümüzə arxalanaq, nə siyasi cəhətdən, nə maliyyə cəhətdən heç kimdən asılı olmayaq, heç kimə borclu olmayaq və öz taleyimizi özümüz həll edək.

Bu gün Azərbaycan reallıqları göstərir ki, müstəqillik illəri bizim üçün nə qədər qiymətlidir və nə qədər böyük xeyir gətirir. Heç vaxt tarixdə Azərbaycan indiki qədər güclü, indiki qədər azad və müstəqil olmamışdır. Biz tarixi yaxşı bilirik, müxtəlif dövrlərdə Azərbaycan ərazisində dövlətlər, müxtəlif ictimai idarəetmə formaları olub. Ancaq bugünkü dövr əsl müstəqillik dövrüdür. Heç kimdən asılı deyilik, öz taleyimiz öz əlimizdədir, inamla irəliyə gedirik və perspektivlər də çox açıqdır, aydındır. Biz bilirik nə istəyirik. Cəmiyyətdə Azərbaycanın inkişafı ilə bağlı fikir ayrılığı yoxdur və referendum bunu bir daha təsdiq etdi".

# Referendumun nəticələri rəsmən açıqlandı: 92% “hə” deyib

## AŞ PA nümayəndə heyəti referendumun nəticələrini tanıdı; müxalifət də islahatlar gözləyir

**Mərkəzi Seçki Komissiyası (MSK) Azərbaycan Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı sentyabrın 26-da ümumxalq səsverməsinə çıxarılmış referendum aktı layihəsi üzrə səslərin hesablanmasının yekun nəticələrini açıqlayıb. MSK sədri Məzahir Pənahov sentyabrın 27-də keçirdiyi mətbuat konfransında bildirib ki, Azərbaycanın xaricdəki diplomatik nümayəndəliklərində təşkil olunmuş seçki məntəqələrinin də hamısında səsvermə prosesi başa çatıb. Beləliklə, 5627 seçki məntəqəsinin hamısı hesabat verib. Səsvermənin nəticələrinə görə, 29 dəyişikliyin hamısı səsvermədə dəstəklənib. Dəyişiklikləri dəstəkləmə faizi 83-92 faiz arasında dəyişir. Prezidentlik müddətinin 5 ildən 7 ilə qaldırılmasına seçkiyə qatılanların 92 faizinin müsbət yanaşdığı deyilir. Yaş senzinin 18-ə endirilməsinə isə səsvermədə iştirak edənlərin 91 faizinin “hə” dediyi qeyd edilir.**

Xalq torpaqlardan səmərəli istifadə edilməyəcəyi təqdirdə torpaq üzərində mülkiyyətin məhdudlaşdırılması müddəasının ana qanuna daxil edilməsinə “hə” deyib. Referenduma qatılanların 85 faizinin bunu dəstəklədiyi bildirilir.

Vitse-prezidentlik institutunun müdafiəsi də səsvermə iştirakçılarından az səs almayıb. Həmin maddənin müdafiəsinə 89 faizin dəstək verildiyi vurğulanır.

Seçicilərin 69,7 faizinin seçkiyə qatıldığı da MSK-nın məlumatında yer alır.

**M.Pənahov deyib ki, MSK-ya heç bir rəsmi müraciət, şikayət daxil olmayıb:** “Beynəlxalq müşahidəçilər öz rəylərini veriblər. Yerli müşahidəçilər də geniş müşahidə missiyası həyata keçiriblər. İki gün ərzində rəsmi protokolların qəbulu prosesi ilə məşğul olacağıq. Ondan sonra protokollara əsasən ilkin nəticələri internet səhifəmizə yerləşdirəcəyik. Ən geci 25 gün ərzində prosesə yekun vurulacaq. Müraciət daxil olmasa, araşdırmalar tez yekunlaşarsa, nəticələri təsdiqləmək üçün iclas çağıracağıq”.

**M.Pənahov sosial şəbəkələrdə məntəqələrdə qutulara topa bülletenlər atılması ilə bağlı yayılan görüntülərə də münasibət bildirib:** “O halların hamısı araşdırılacaq. Səsverməyə təsir etmək gücündə olsa, həmin məntəqələrdə seçkinin nəticələri ləğv ediləcək. Həmin komissiyalar da buraxılacaq”.

### “Prezident dövlətin və hamımızın taleyini müəyyənləşdirəcək yeganə şəxsdir”

Bir çox ekspertlər, təhlilçilər ümumxalq səsverməsinə çıxarılan və qəbul edilən konstitusiya dəyişikliklərini ölkənin siyasi idarəetmə institutunda yeni bir mərhələ kimi qiymətləndirir.

**Müxalifət düşərgəsində də ciddi islahatlar gözləyənlər var. Məsələn, VİP sədri Əli Əliyev bildirdi ki, referendumdan sonra hakimiyyətin qarşısında çox ciddi vəzifələr dayanıb. O qeyd etdi ki, yeni dəyişikliklər paketi prezidentə tarixi şans verir:** “Müstəsna səlahiyyətlər bu günə qədər onun idarəçiliyinin uğursuz hissəsində məsuliyyət payını azaltmaq üçün imkanlar yaradır. Prezident İlham Əliyev belə şəraitdə yaxın aylar üçün dövlətin və hamımızın taleyini müəyyənləşdirəcək yeganə şəxsdir. Bunun yolu isə sadədir-ya həqiqi islahatlar baş tutacaq, ya da ki, hər işin mövcud şəkildə saxlanıb ölkənin xaosa sürüklənməsi baş verəcək. İkinci variantı istəyənlərlə işim yoxdur. Ölkənin dəyişməsini istəyənlərin birisi kimi prezidenti xalqı düşünərək islahatlara getməyə, köhnənin yükündən azad olmağa, cəmiyyətlə konsensus tapmağa çağırıram. Ehtiyat limitimiz böyük deyil. Bu işlərin görülməsi üçün cəmi bir neçə ayımız var”.

### “Venesiya Komissiyasının mənfi rəyi o deməkdir ki...”




Avropa Şurasının Venesiya Komissiyasının konstitusiya dəyişikliklərinə mənfi rəy verməsini və bu rəydən hakimiyyətdəkilərin narazı qaldığını, narahatlığını çıxsaq, iqtidar referendumu heç bir daxili və xarici problem olmadan asanlıqla həyata keçirdi. Bəs maraqlıdır, Venesiya Komissiyasının mənfi rəyindən nədən bu qədər narahatlıq keçirir hakimiyyət düşərgəsi? Bu qurumun rəyinin hansı əhəmiyyəti və təsirləri ola bilir? Rəyin müsbət olmamasından narahatlığa dəyərmi?

**ADP sədri Sərdar Cəlaloğlunun sözlərinə görə, Venesiya Komissiyasının mənfi rəyi o deməkdir ki, bundan sonra Azərbaycanda atılacaq heç bir addım Avropa dəyərlərinə uyğun addım kimi qəbul edilməyəcək. Bu konstitusiya və digər qanunlar Azərbaycan daxilində işləyəcək. Amma bu qanunlar beynəlxalq birlik tərəfindən legitim tanınmayacaq. Çünki Venesiya Komissiyası konstitusiyaya dəyişikliklərə mənfi rəy verib:** “Yəni bu, o deməkdir ki, Azərbaycan Avropadan bir addım da uzaqlaşıb. Avropanın da onun dəyərlərindən uzaqlaşan cəmiyyətlərlə əməkdaşlıq sahələrində ümumi bir kursu var. Azərbaycan hakimiyyətindəki adamlar yaxşı bilirlər ki, Venesiya Komissiyasının bu rəyi Avropanın və ABŞ-ın bütün demokratik institutları, demokratik dövlətlər tərəfindən əsas götürüləcək və Azərbaycanda həyata keçirilən bütün proseslər şübhə altına alınacaq, legitim hesab olunmayacaq. Hakimiyyət təmsilçilərini qıcıqlandıran, narahat edən və qəzəbləndirən budur. Onlar istəyirlər ölkədə aparılan siyasət Avropada, ABŞ-da dəstəklənsin. Ona görə ki, Azərbaycan iqtidarının iqtisadi əlaqələri daha çox Qərblədir. Qərb isə öz iqtisadi əlaqələrini həm də siyasi əlaqələrə uyğun qurmaq istəyir. Bu baxımdan nonsens yaranır, bir tərəfdən Azərbaycan iqtisadi sahədə Qərblə geniş əməkdaşlıq edir, o biri tərəfdən isə demokratiya sahəsində əməkdaşlıqdan imtina edir. Bu disbalans vəziyyət isə uzun müddət davam edə bilməz. Müəyyən müddətdən sonra Avropa iqtisadi əlaqələri kəsə bilər və Azərbaycan çox ağır situasiya ilə üz-üzə qala, hakimiyyətdəkilər Avropaya yatırılan investisiyalardan məhrum ola bilər. Venesiya Komissiyasının mənfi rəyindən narahatlıq bununla bağlıdır. Hakimiyyətdəkilər bilir ki, Venesiya Komissiyasının rəyi bir çox iqtisadi dairələrə qərarları qəbul etmək üçün əsas olur. Venesiya Komissiyası bir mesaj verir iqtisadi çevrələrə ki, bu ölkədəki əsas qanunda bir çox müddəalar Avropa standartlarına uyğun deyil. Nəticədə böyük iqtisadi çevrələr gələcəkdə Azərbaycanla iqtisadi əlaqələrə girməkdən çəkinə bilərlər. Bu da indiki vəziyyətdə Azərbaycana zəruri olan investisiya qoyuluşunun qarşısını ala bilər”.

**ADP sədri bildirdi ki, referendumu müşahidə edən beynəlxalq müşahidəçilərin böyük əksəriyyətinin verdiyi müsbət rəy səsvermənin təşkili, insanların sakit şəkildə gəlib səs verməsi, texniki-təşkilati məsələlərlə bağlıdır:** “Diqqət etdikdə görürük ki, beynəlxalq müşahidəçilər konstitusiyaya dəyişikliklərin Avropa standartlarına uyğun olub-olmadığı barədə rəy bildirmədilər. Onlar seçki prosesinin təşkili, məntəqələrdəki sakitlik, səliqə-sahman və digər bu kimi texniki-təşkilati prosedurlardan danışdılar və buna müsbət rəy verdilər. Digər tərəfdən də, müşahidəçilərin siyahısına baxanda məlum olur ki, AŞ PA-nı çıxsaq, heç bir böyük, nüfuzlu, sözü beynəlxalq aləmdə qəbul edilən təşkilatdan müşahidəçi yox idi. Ayrı-ayrı ölkələrdən olan bir neçə deputatlar da var idi. Onlar da həmin ölkələrin parlamentləri tərəfindən göndərilməmişdilər, şəxsi əlaqələr onların fərdi şəkildə buraya gəlməsini təmin edib”.

### AŞ PA-nın rəyi: “Azərbaycan Konstitusiyası qanuni və legitim hesab olunur”

**AŞ PA-nın referendumla bağlı qiymətləndirmə missiyasının rəhbəri Aleksandr Nikoloski heyətin ilkin rəyini dünən açıqlayarkən bildirib ki, AŞ PA nümayəndə heyəti belə nəticəyə gəlib ki, referendum milli qanunvericiliyə uyğun keçirilib:** “Azərbaycan Konstitusiyası qanuni və legitim hesab olunur. Səsvermə prosesi şəffaf və yaxşı təşkil olunub, səmərəli və sakit keçib. Səslərin sayılması zamanı ciddi pozuntular qeydə alınmayıb. Biz Azərbaycan xalqının iradəsinə hörmətlə yanaşırıq. Hesab edirik ki, referendumun nəticələri Azərbaycanın təhlükəsiz, stabil və davamlı inkişafı istiqamətində bir addım kimi Azərbaycan xalqının iradəsini ifadə edir. Azərbaycan hökumətini gələcəkdə seçki prosesini daha da inkişaf etdirməyə çağırırıq”.

A.Nikoloskinin təqdim etdi rəydə həmçinin deyilir ki, Azərbaycan hökumətinin konstitusiya dəyişikliyi ilə bağlı rəy alınması üçün Venesiya Komissiyasına müraciət etməməsi təəssüf doğurur.

**O, nümayəndə heyətinin AŞ PA bürosunun Venesiya Komissiyasına rəy üçün müraciət etməsini alqışladığını bildirib:** “Biz Azərbaycan hökumətini konstitusiya dəyişiklikləri ilə bağlı Venesiya Komissiyasının rəyinə hörmətlə yanaşmağa çağırırıq”.

**A.Nikoloski referendum kampaniyası zamanı bir neçə siyasi fəalın müxtəlif ittihamlarla saxlanılmasından təəssüfləndiklərini qeyd edib.**

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 213 (6534) 28 sentyabr 2016

GLOBAL RISK INSIGHTS
Know Your World

# Beynəlxalq agentlikdən sensasion iddia: "Azərbaycanda gizli müxalifət..."

**"Global Risk İnsight" analitik agentliyi Azərbaycanda sentyabrın 26-da keçirilən referendumla bağlı geniş yazı dərc edib. Məqalədə diqqət çəkən iki əsas məqam var. Yazıda qeyd olunur ki, "dəyişikliklərdən sonra cəmiyyətdəki narazılıqların daha artıq boğulacağı şübhəsizdir, ona görə də gələcəkdə gizli müxalifət hərəkatlarının koalisiyasının şahidi ola bilərik".**

Beynəlxalq agentliyin sensasion məqaləsi ölkəmizdə ciddi müzakirələrə səbəb olub və mövqelər heç də birmənalı deyil.

**Ümid Partiyasının sədri İqbal Ağazadə məqalədə qeyd olunan fikirlərlə razı deyil:** "Azərbaycanda siyasi təşkilatlar konstitusiyadakı "Siyasi partiyalar haqqında" Qanuna uyğun şəkildə fəaliyyət göstərirlər. İnanmıram ki, Azərbaycan müxalifətinin hansısa bir qolu, yaxud hansısa bir təşkilat zorakılığı məqsədə çatmaq üçün vasitə hesab etsin. Çünki biz demokratik cəmiyyət quruculuğunun tərəfdarıyıq. Bu siyasət birmənalı şəkildə zorakı üsulları qəbul etmir. Bundan sonra da fəaliyyətimizi bu şəkildə quracağıq. Ola bilər ki, bu məqalədə bəzi dini qruplaşmaları nəzərdə tutsunlar. Amma hesab edirəm ki, bu da bugünkü Azərbaycan üçün real deyil. Elə bir dini qruplaşma da Azərbaycanda fəaliyyət göstərmir və kütləni arxasınca aparmaq gücündə deyil. Kimlərsə lokal şəkildə toplaşa bilərlər, amma bunu da real hesab etmirəm. Siyasi repressiyalara gəldikdə isə əvvəl də siyasi partiya fəallarına qarşı hakimiyyətin münasibəti bəlli idi. Bunun sonra da dəyişəcəyini güman etmirəm. Amma iqtisadi vəziyyətin çətinləşməsindən dolayı təbii ki, narazılıqlar arta bilər. Güman etmirəm ki, bu narazılıqlar zorakılığa söykənən narazılıqlar olsun".



**İqbal Ağazadə:** "Azərbaycan üçün real deyil"



**Fəzail Ağamalı:** "Artıq gizli müxalifəti formalaşdırıblar"

**Ana Vətən Partiyasının sədri, iqtidaryönlü deputat Fəzail Ağamalı bildirdi ki, bu, şantaj xarakteri daşıyan, dövlətçiliyimizi təhdid edən məqalədir:** "Azərbaycan xalqı öz iradəsini referendumda heç bir təzyiq olmadan ortaya qoydu, səs verdi, konstitusiyaya əlavə və dəyişikliklər xalqımızın iradəsi ilə reallaşdı. Azərbaycanı istəməyən qüvvələr nəyin hesabına olursa-olsun, bütün vasitələrdən istifadə etməyə çalışaraq, ölkəmizdə qarşıdurma yaratmağa səy göstərirlər. Bu bütün parametrlərdə özünü göstərməkdədir. Referendum ərəfəsində Venesiya Komissiyasının anormal rəyi, BMT-nın Azərbaycanda olan nümayəndəsinin heç bir əsası olmayan yersiz bəyanatı və digər bunun kimi addımlar qalsın bir tərəfə, indi də bu cür bəyanatlarla çıxış etmələri bir daha onların mahiyyətini ortaya qoyur. Bu o deməkdir ki, həmin təşkilatlar və arxalarında olan güclər Azərbaycanda artıq gizli müxalifəti formalaşdırıblar. Bu gizli müxalifətdə olanlar Azərbaycan dövlətçiliyinə qənim kəsilən, pulla ələ alınan şəxslər ola bilərlər. Bundan sonra son dərəcə ehtiyatlı olmalıyıq. Gizli müxalifət de-şifrə olunmalıdır. Bütün bunların hamısına aydınlıq gətirilməli, heç bir gizli məqam qalmamalıdır. Bunların arxasında duran qüvvələr də ifşa olunmalıdır. Ümid edirəm ki, hüquq-mühafizə orqanlarımız qısa zaman kəsimində öz peşəkarlıqlarını ortaya qoyub, bu məsələni araşdırıb üzə çıxaracaqlar. Cəmiyyət bununla bağlı məlumatlandırılmalıdır. Bu gün xalqımız dövlətçiliyin yanındadır. Müstəqilliyimizi istəyən bütün qüvvələr dövlətçiliyin ətrafında daha sıx birləşməlidir ki, bu təhdidlərə qarşı müqavimət göstərək və iradəmizi ortaya qoyaraq, bu təhlükənin reallaşmasına imkan verməyək".

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev bundan əvvəl də Azərbaycanı yaxından tanıyan xarici politoloqun bu tipli açıqlama verdiyini söylədi:** "Onlar Azərbaycanı bizdən yaxşı tanıyırlar. Bu tipli ehtimallar Qərb institutları tərəfindən səsləndirilir. Demək, problem var ki, belə ehtimallar səslənir. Bu gün müxalifətə qarşı Azərbaycanda nəsə bir siyasət aparmaq mənasızdır. Böhranın qarşısını almaq vasitəsi deyil. Bugünkü problem iqtidar-müxalifət arasında deyil, hakimiyyətlə-cəmiyyət arasındadır. Çünki bu böhrandan bütün vətəndaşlar əziyyət çəkirlər. Böhrandan çıxış yolunu hələ ki görmürük. İslahatların necə olacağı, hansı formada aparılacağı məlum deyil. İslahatların gedişindən çox şey asılı olacaq. Hakimiyyət yaxşı başa düşür ki, islahatlar aparmalıdır. Çevik islahatlar çox vacibdir, bunlar olmazsa, ciddi problemlərin üzə çıxması qaçılmaz olacaq".

❑ **Cavanşir ABBASLI**



# Nazpəri Dostəliyeva efir qadağasını necə "sındırdı"?

**Xalq artisti Nazpəri Dostəliyeva nəhayət ki, 3 illik efir qadağasından sonra ilk dəfə ekranda görünüb. Efirlərdən uzaq düşən müğənni bununla bağlı ötən il media nümayəndələrini bir yerə yığaraq mətbuat konfransı keçirmişdi. Müğənni bildirmişdi ki, bir neçə il bundan əvvəl tanınmış siyasilərdən birinin oğlunun toy məclisində iştirakından sonra kimlərinsə zəngi və tapşırığı ilə televiziyaların qapısı üzünə bağlanıb. Mətbuat konfransının da bir nəticəsi olmadığını görən müğənni ölkə başçısına da müraciət ünvanlayaraq efirlərdən sifarişli qadağanın götürülməsini xahiş etmişdi.**

Nəhayət ki, bu qadağa sentyabrın 26-da, ölkədə keçirilən konstitusiyada dəyişikliklər üzrə ümumxalq səsverməsi (referendum) günündə aradan qaldırılıb. Xalq artisti Nazpəri Dostəliyeva uzun ayrılıqdan sonra ilk dəfə olaraq "Xəzər TV"-də Zaur Kamalın təqdimatında "5 də 5"verilişinin qonağı olub. Verilişdən bir neçə gün əvvəl isə müğənni mətbuat vasitəsilə hər kəsi referenduma "hə" deməyə çağırış etmişdi. Referendum günü isə seçkilərdə iştirak etməsi ilə bağlı fotosunu sosial şəbəkədə yerləşdirərək konstitusiyada edilən dəyişiklikyi dəstəklədiyini qeyd edib. Qeyd edək ki, müğənni verilişdə çox həyəcanlı görünüb, efir üçün darıxdığını bildirib.

Xalq artistinin bir neçə gün öncədən çağırışlar edib, referendum günü efirə çıxmasını tənqid edənlər də tapılıb. Onunla əlaqə saxlayaraq məsələyə münasibətini öyrənməyə çalışdıq. Lakin müğənni qəti şəkildə heç bir müsahibə və ya açıqlama vermək istəmədiyini bildirdi.

❑ **Xalidə GƏRAY**

# Xəbər boşluğunu hansı kanal dolduracaq?

## Zeynal Məmmədli: "Rənglərdən biri yoxdur..."



Zeynal Məmmədli

**ANS telekanalının öz fəaliyyətini dayandırması ilə telexəbər məkanında da bir boşluq yarandı. Hər nə qədər zaman-zaman tənqidlərə məruz qalsa da, ANS xəbər məkanında öz sözünü deyən kanallardan olub. Bir çox hallarda isə rəqib kanalları operativliyi, dəqiqliyi ilə geridə qoyub. Bundan başqa, gündə bir neçə dəfə xəbər buraxılışı hazırlayıb efirə verən kanalın tamaşaçıları indi alternativlərə üz tutmaq zorunda qalıblar.**

Məhz bunun nəticəsidir ki, artıq ATV gün ərzində xəbər buraxılışlarının sayını artırıb. Eyni rəqabət tempi "Xəzər" telekanalına da aiddir. ANS-in xəbər məkanındakı yerini öz aralarında bölüşdürmək istəyən rəqibləri bu mənada xeyli irəliləyiş də ediblər.

Daha bir yenilik isə ANS-in aparıcı simalarının başqa kanallarda işləməsidir. Bunlardan biri də aparıcı Aytən Səfərovadır ki, o da yeni mövsümdə telekanalda xəbərlər aparıcısı kimi də efirə çıxıb. A.Səfərova ilə yanaşı "Xəbərlər" departamentində yeni simalar da var. Onlardan biri Ariz Tarverdiyev, digəri isə Əsmər Nəcməddinqızıdır. Hər ikisi bundan əvvəl ATV-də müxbir kimi çalışıblar.

**Media eksperti Zeynal Məmmədli deyir ki, ANS-in teleməkanda fəaliyyət göstərməsi onun çoxrənglilik yaratmasının sübutu idi. Onun sözlərinə görə, hazırda rənglərdən birinin itməsi mənzərəni dəyişir:** "ANS bir rəng idi. Bu baxımdan, onun gedişi itkidir. Söhbət təkcə bir telekanaldan getmir. Söhbət həm də konkret müəllifdən gedir. O xəbərdə bir müəllifin gedişi də olur. O müəllif işini itirirsə, başqa bir televiziyada yerini tapırsa, yaxşıdır. Amma əks halda, müəllif də, onun verilişi də itki sayılır".

Z.Məmmədli dedi ki, ANS-in televiziya məkanında olmaması rəng itkisidir. Müsahibimiz "onun rənginin yerini kimsə doldura biləcəkmi" deyə sual etdi. Ekspertə görə, bu, başqa bir müzakirənin mövzusudur.

❑ **SEVİNC**

# Avropa Məhkəməsinin İlqar Məmmədov barədə qərarı qüvvəsini itirə bilər

## Fuad Ağayev: "Layihə əsas qanuna tamamilə ziddir"

**Azərbaycanda siyasi məhbuslarla bağlı Avropa İnsan Haqları Məhkəməsinin (AİHM) çıxardığı qərarlar əhəmiyyətini itirə bilər. Belə ki, Milli Məclisə təqdim edilmiş qanun layihəsində Avropa Məhkəməsinin qərarlarından imtina nəzərdə tutulur. Əgər beynəlxalq qurumun qərarı qanunvericiliyimizə uyğun gəlməzsə, Azərbaycan hökuməti həmin qərarı icra etməyə bilər.**

Hazırda həbsdə olan REAL sədri İlqar Məmmədov barəsində AİHM-in onun azadlığa buraxılması ilə bağlı qəbul etdiyi mühüm qərarları var. Əgər qanun layihəsi Milli Məclisdə qəbul olunarsa, REAL sədrinin bu qərarlar üzrə onun azadlığa çıxacağına olan ümidləri tamamilə üzərindən xətt çəkə bilər.

İ.Məmmədovun vəkili Fuad Ağayev "Yeni Müsavat"a açıqlamasında öncəliklə REAL sədrinin Ali Məhkəmədə yubadılan kasasiya şikayətinə baxılmamasından danışdı: "Kasasiya baxışı hələ təyin olunmayıb. Müraciətimiz üzərindən artıq aylar keçib. Sonuncu dəfə İlqar Məmmədovla ötən həftə görüşdüm. Vəziyyətində elə bir dəyişiklik yoxdur".



İlqar Məmmədov

**Vəkil Avropa Məhkəməsinin qərarlarından imtinanı nəzərdə tutan qanun layihəsinin gündəmə çıxmasına da mövqe bildirdi:** "Azərbaycan üzərinə beynəlxalq hüquqi öhdəliklər götürüb. O cümlədən insan hüquqları sahəsində. Azərbaycan dövlət orqanlarının, məhkəmələrinin təcrübəsi konstitusiyaya uyğun olaraq qanunvericiliyin müvafiq maddələrinə uyğun şəkildə beynəlxalq müqavilələrlə müəyyən olunmuş tərzdə həyata keçirilməlidir. Ümumiyyətlə, Azərbaycan insan hüquqları və azadlıqları haqqında konvensiyanı, ona aid protokolları təsdiqləyib, onlara qoşulubsa, həmin müqavilələri icra etməlidir. Avropa Məhkəməsinin qəbul etdiyi qərarları da birmənalı şəkildə icra etməlidir. Onların icra edilməsi Azərbaycan Konstitusiyasından və qoşulduğu beynəlxalq müqavilələrdən irəli gəlir. Belə bir layihə əsas qanuna tamamilə ziddir və müzakirə predmeti olmamalıdır".

**İ.Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova onunla bazar günü danışdıqlarını söylədi:** "Telefonla danışdıq, normal bir zəng idi. Yəni əvvəlkilərdən fərqlənmirdi. Milli Məclisə Avropa Məhkəməsinin qərarları ilə bağlı təqdim edilən layihə qəbul olunarsa, düşünürəm ki, qəbuldan sonrakı qərarlara şamil oluna bilər. İlqar barəsində isə qərar çoxdan qəbul edilib. Məncə, bu qərarın İlqara heç bir aidiyyəti olmayacaq".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 213 (6534) 28 sentyabr 2016



# Mədəsiz general

Zamin HACI
zaminhaci@gmail.com

**Keçmiş MTN generalı Akif Çovdarov zindandan məktub göndərib, deyir məni öldürmək istəyirlər, belə rejim olmaz. Sən demə, Akif müəllimin qaraciyərinin yarısı, böyrəyinin parası, mədəsinin isə hamısı yox imiş. Müxtəlif xəstəliklərə görə, dövlətçiliyimizin müxtəlif inkişaf mərhələlərində, müxtəlif xarici dövlətlərdə (bunların içində dağılan Almaniya da var idi) əməliyyatla kəsilib götürülübdür.**

Vay-vay... Generalı incidənlərə ar olsun. BMT İnsan Haqları Konvensiyasına görə - hələlik imkan var, sitat gətirək, bir azdan Azərbaycanda bunlara qoz verən də olmayacaq, öz suveren yolumuzla şütüyəcəyik - hətta hərbi əsirlərin belə keyfiyyətli tibbi yardım almaq hüququ vardır.

Ancaq mən Akif müəllimin mədəsinin olmadığını oxuyanda bir az çaşdım qaldım. Çünki rəsmi ittihama görə o və əlaltılarının 62 zərərçəkəndən qapazladığı vəsaitin miqdarı hardasa 35 milyon manata yaxındır. Elə biz jurnalistlər də həmkarımız Aqil Xəlilə Çovdarovun zeytunluqda necə hücum çəkdiyini, bundan sonrakı təqibləri unutmamışıq, biabırçılıq, reketlik elə səviyyədə idi ki, hətta Daxili İşlər Nazirliyi Aqil Xəlili müşayiət edən ayrıca cangüdən qrupu ayırmağa məcbur olmuşdu ki, "emteençilər" fağır jurnalisti döyüb öldürməsinlər. Akif müəllim belə Akif müəllim idi. İndi isə deyir mədəm yoxdur... Mədəsi yoxdur, bu qədər yeyib, olsa nə qədər yeyərdi? Sual budur.

Doğrusu, Beynəlxalq Bankın köhnə şefi Cahangir müəllimin mədəsi var, ya o da kəsdirib çıxardıbdır - bu haqda ətraflı bilgimiz yoxdur. Ancaq prokuror ona da 17 il həbs cəzası istədi. Böyük ehtimalla az verəcəklər, bir-iki il yatızdırıb buraxacaqlar, sadəcə, indi 17 il oxumaqla Cahangir müəllimin əsəblərini yoxlayırlar: "Görək yediyi boşqaba tüpürüb ağzına gələni danışacaqmı?" Həssas məqamdır belə məqamlar. Danışana 10 il verirlər azı, hətta 10 il qurtaranda da bonus kimi daha 10 il üstünə gəlir. Hərçənd danışmayana da bəzən 10 il verirlər. Bizim hüquq sistemindən kimin başı çıxır ki?

Bax, srağagün guya zəhmətkeşlərimiz yüz minlərlə cəm olub məntəqələrə axışdılar, konstitusiya dəyişikliyinə səs verdilər. Maddələr üzrə "hə" səslərinin orta faizi hardasa 85-87 arasında dəyişir. Misal üçün, orda bir maddə vardı, yazmışdılar "lokaut qadağan edilir", guya buna zəhmətkeşlərin 84 faizi razı olubdur. Heç nə demirəm, çıxaq küçəyə, istənilən yerdə sorğu keçirək, əgər 10 min adamdan 8 nəfəri "lokaut" sözünün mənasını bilsə, qələmi qarnıma soxub intihar edəcəyimə and içirəm.

Vitse-prezident vəzifəsi olacaq, parlamentin səlahiyyəti sıfıra endirildi, canım sənə desin, yaş həddi elə gəldi, xaş həddi belə getdi - bunlar da ölkəmizdə heç nəyi dəyişmir. Faktiki olaraq heç kəsin proqramı yoxdur. Nə iqtidarın, nə müxalifətin. İqtidar oturub "bəlkə neft bahalaşdı" deyə gözləyir, müxalifət də "görək neft haçan tam öləcək" deyə. Hər ikisi yanlışdır, Azərbaycanın xoşbəxt gələcəyi üçün lazımsız yoldur (Xoşbəxt gələcəyi gülmək üçün yazdım). Hərçənd bizim də mədəmizi Akif müəllimin mədəsi kimi kəsiblər, iştahsız yaşayırıq, yola verərik. Elə böyük arzularımız yoxdur: yekə gədə universitetə girsin, ortancıl qızı ərə verək, balaca gədənin sünnətində də babat pul toplansın. Vəssalam-şüttamam. Xəngəlin sezonu gəlir, arada gürcü xəngəli yeyib "Bunu da içək işğal olan torpaqların sağlığına" deyərək gəyirişmək də paketə daxildir.

Harda qalmışdıqsa, ordan da davam edək. Düzü, heç bilmirəm harda qalmışdıq. Siz bilirsinizsə, mənə xəbər eləyərsiniz. Sonda bir müşahidəmi yazım, temanı bağlayaq: həmişə türməyə düşən və səhhətindən şikayətlənən yapistlərin nəsə mədəsi, qaraciyəri, öd kisəsi, bağırsaqları ağrıyır. Heç baş ağrısından əziyyət çəkəni görmədik. Bu haqda fikirləşmək lazımdır. İndidən fikirləşin ki, bizim başımız niyə yoxdur. Yoxsa hökumət qulluğuna, general işinə keçəndə onu kəsdirib keçirsiniz?



# Rusiya-Ermənistan hərbi əməkdaşlığına qarşı unikal təklif

## Politoloq Türkiyə ilə Azərbaycan arasında hava qüvvələrinin əməkdaşlığı təşəbbüsü ilə çıxış etdi; **Elçin Mirzəbəyli:** "Rusiya ilə işğalçı ölkə arasındakı saziş Azərbaycanın Türkiyə ilə birgə hərəkət etmək üçün əldə edə biləcəyi hüquqi presedentdir"

**Rusiyanın Ermənistanla birgə Hava Hücumundan Müdafiə sistemi qurmağa qərar verməsi Azərbaycanı alternativlər axtarmağa vadar edir. Düzdür, rəsmi Bakı bu məsələni iki ölkənin daxili işi hesab edir. Ancaq hər halda, söhbət işğalçı ölkənin quru və hava məkanının birgə müdafiəsindən gedirsə, bu, Azərbaycanda narahatlıq doğurmaya bilməz.**

Düşmən ölkənin bundan əvvəl Rusiyadan "İsgəndər" raketlərini alması da alternativlərə əl atmağı zəruri edir.

**Bu arada müdafiə sənayesi naziri Yavər Camalov maraqlı açıqlama ilə çıxış edib. O deyib:** "Hazırda 125 məmulatın üzərində təcrübə konstruktor işləri aparılır. Prioritet layihələrdən hava-yer, hava-hava və yer-yer raketləri üzərində iş aparılır".

Y.Camalov qeyd edib ki, 280 km məsafədə ballistik raketlərin texnologiyasının Azərbaycana gətirilməsi ilə bağlı dünyanın bir neçə aparıcı şirkəti ilə danışıqlar gedir.

Xatırladaq ki, Rusiya və Ermənistan tərəfi ötən ilin 23 dekabr tarixində Hava Hücumundan Müdafiə (HHM) sistemini birgə yaratmaq üçün ilkin razılığa gəlmişdi. 26 sentyabrda isə Rusiya tərəfi bu qanunu təsdiq etdi. Sənədi Rusiya prezidenti imzaladıqdan sonra qanun layihəsi ratifikasiya üçün Dövlət Dumasına göndəriləcək. Ermənistan Milli Məclisi isə bu sazişi hələ iyunun 30-da, aprel müharibəsindən sonra ölkədə yaranmış ciddi təşviş fonunda ratifikasiya etmişdi. Ermənistan müdafiə naziri Seyran Ohanyan demişdi ki, birləşmiş HHM sistemi haqqında müqavilə Ermənistana Rusiyanın qırıcı təyyarələri, S-300 sistemi və RF Hərbi-Kosmik Qüvvələrinin kəşfiyyat məlumatlarından istifadə etməyə imkan verəcək. Birləşmiş HHM sisteminə qarşı çıxış edən İrs parlament fraksiyasının rəhbərliyi bu sənədin qəbul olunmasını "xəyanət" adlandırsa da, hakimiyyət bunu "xilas yolu" kimi təqdim edib.

Rusiyanın Ermənistanın hava məkanını qoruması Azərbaycan üçün nə deməkdir? Bu anlaşma Qarabağ müharibəsi başladığı zaman bizə ciddi problemlər yarada bilərmi? Azərbaycan bu razılaşmanın, təhdidin qarşılığında hansısa müttəfiqi ilə analoji saziş imzalaya bilərmi?

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Rusiya ilə Ermənistanın birgə Hava Hücumundan Müdafiə (HHM) sistemi yaratması ilə bağlı razılaşma və bu razılaşmanın əsasında hazırlanan qanun layihəsi formal xarakter daşıyır:** "Hər kəsə bəllidir ki, Ermənistanın hava və quru sahəsinə, sərhədlərinə Rusiya nəzarət edir. İndiki şəraitdə bu qanun layihəsini mövcud reallığın qanuniləşdirilməsi, yəni Rusiyanın Ermənistanın hava məkanına nəzarəti üçün hüquqi bazanın yaradılması kimi qəbul etmək olardı, əgər Rusiya beynəlxalq münasibətlərdə hüquqi mexanizmlərə önəm versəydi. Amma Rusiyanın xarici siyasətinin ənənəvi prioritetlərini və bu müstəvidə xüsusilə



də 2008-ci ildən başlayaraq atılan addımları nəzərə alsaq, o zaman məsələnin daha çox siyasi müstəvidə həyata keçirilən bir aksiya olduğu qənaətinə gəlmək olar".

**Politoloq bu barədə danışarkən bir vacib məqama da toxundu:** "Diqqətə almaq lazımdır ki, Moskva-İrəvan razılaşması Rusiyaya məxsus hərbi təyyarənin Türkiyəyə məxsus qırıcılar tərəfindən vurulduqdan təxminən 1 ay sonra gündəmə gəlib. Həmin dövrdə bir çox ekspertlər Rusiyanın bu addımının Türkiyəyə qarşı olduğunu bildirirdilər. Baş verənlərin ümumi mənzərəsi də bu ehtimala yol açırdı. Lakin unutmaq lazım deyil ki, razılaşma ilə bağlı müzakirələr Rusiya təyyarəsinin vurulmasından bir neçə müddət öncə, Qəbələ RLS-in istismarının dayandırılmasından və ABŞ-ın Şərqi Avropada HHM sistemləri quraşdırılması ilə bağlı müvafiq razılaşmalarından sonra başlayıb. O zaman razılaşmanın həm Birləşmiş Ştatların addımlarına qarşı adekvat reaksiya olduğunu, həm Rusiyanın Cənubi Qafqazda hava məkanına nəzarəti gücləndirmək məqsədi güddüyünü, həm də region dövlətlərinə, o cümlədən Türkiyə və Azərbaycana bir mesaj olduğunu söyləmək mümkündür. Qeyd edim ki, HHM sistemləri təkcə raket hücumundan müdafiə üçün nəzərdə tutulmayıb. Bu, həm də yüksək radiolokasiya və təbii ki, daha geniş əraziyə nəzarət imkanları deməkdir".

**E.Mirzəbəyli razılaşmada Ermənistan əhalisini sakitləşdirmək niyyətinin olduğunu da istisna etmir:** "Burada müharibənin başlayacağı xofu içərisində gərginlik yaşayan Ermənistan cəmiyyətinə ehtimal olunan hava hücumundan müdafiə ilə bağlı təminat və təbliğat elementləri də var. Maraqlıdır ki, Ermənistanda bu razılaşmaya münasibət birmənalı deyil. Bəzi erməni ekspertləri bu razılaşmanın Ermənistanın əl-qolunu tamamilə bağlayacağını, işğalçı ölkənin forpost statusunu daha da möhkəmləndirəcəyini düşünürlər. Razılaşmada Türkiyə-Azərbaycan hərbi əməkdaşlığının, xüsusilə də son zamanlar hər iki ölkənin Hərbi Hava Qüvvələrinin (HHQ) intensivləşməkdə olan əlaqələrinin, birgə təlimlərinin də müəyyən qədər rol oynadığını düşünmək olar. Təbii ki, bunun əksini iddia etmək üçün mövcud olan təhdidlər daha çoxdur. Yəni indiki şəraitdə Türkiyə və Azərbaycan HHQ-lərinin əməkdaşlığının regionda mövcud olan təhlükələrə qarşı meydana çıxdığını söyləmək də mümkündür. Rusiyanın Ermənistanın hava məkanını qoruması Azərbaycan üçün regionda mövcud olan hərbi reallıqlar baxımından heç bir anlama gəlmir. Yəni bu, mövcud hərbi-siyasi vəziyyətin dəyişməsi deyil. Ermənistan onsuz da Rusiyanın hərbi-siyasi müttəfiqi, daha dəqiq desək, forpostudur. Bu ölkədə Rusiyanın hərbi bazası var və sərhədlərinə də rus hərbçiləri nəzarət edir".

**Azərbaycana təhdidlərə gəldikdə, politoloq hesab edir ki, Qarabağ müharibəsi başlayacağı təqdirdə, əgər məsələyə hüquqi müstəvisindən yanaşsaq, o zaman Rusiyanın Azərbaycanın beynəlxalq hüquq tərəfindən tanınmış sərhədləri çərçivəsində həyata keçirdiyi əməliyyatlara müdaxilə etmək imkanı yoxdur:** "Amma Rusiya hüquq dövləti deyil və onun üçün hər hansı bir razılaşmanın, hüquqi anlaşmanın heç bir önəmi yoxdur. Ukraynanın nüvə silahından imtina etməsi müqabilində bu ölkənin ərazi bütövlüyünə təminat verən ölkələrdən biri də Rusiya idi. Sonu nə oldu? Təminatçı ölkə işğalçıya çevrildi. Bu səbəbdən də Rusiya ilə bağlı məsələlərdə hüquq anlayışının bir tərəfə qoyulmasının vacib olduğunu düşünürəm. Yəni proseslərə Rusiyanın maraqları çərçivəsində yanaşmaq lazımdır. Əgər ikinci Qarabağ müharibəsi başlayarsa və Rusiyanın maraqları bu ölkənin neytral qalmasını tələb edərsə, o zaman yüz belə razılaşma, qanun layihəsi olsa da Rusiya neytral qalacaq. Və yaxud əksinə, maraqları tələb edəcəksə, hətta Azərbaycanla qarşılıqlı hərbi yardımlaşma haqqında müqavilə imzalasa da, müdaxilə edəcək. Bu sazişin ratifikasiya olunmasının Azərbaycana verdiyi yeganə imkan ölkəmizin öz Hava Hücumundan Müdafiə sistemlərini gücləndirmək və bu sahədə Türkiyə ilə birgə hərəkət etmək üçün əldə edə biləcəyi hüquqi presedentdir".

**E.PAŞASOY**

YENİ MÜSAVAT
N 213 (6534) 28 sentyabr 2016

# Ermənilərin "İsgəndər" eyforiyasını sıfırlayan reaksiya

**Dünən Bakıda "ADEX-2016" ikinci hərbi sənaye sərgisi açılıb. Sərgidə Azərbaycanın hərb sənayesinin məhsulları da nümayiş etdirilir. Bu sərgi sözsüz ki, ərazisinin bir hissəsi işğal altında olan ölkə kimi Azərbaycanın özünün hərbi qüdrətinə ayırdığı diqqətin növbəti nümayişidir. Eyni zamanda Ermənistanda son günlər "İsgəndər" raket komplekslərindən dolayı yaşanan eyforiyaya yetərincə sanballı cavab-mesajdır.**



# Rəsmi Bakıdan düşmənin son ümidini qıran mesaj: "İmkan verilməyəcək!.."

## Prezident İlham Əliyevdən işğalçı Ermənistana xatırlatma: "Regionda ən böyük hərbi potensiala malik ölkəyik"; Bakıdakı 2-ci beynəlxalq müdafiə sərgisi İrəvanın son təxribatlarına növbəti layiqli cavab və unikal fürsət tədbiridir; Azərbaycan 280 km mənzilli ballistik raket istehsalına hazırlaşır...

**Hansı mesaj ki, Azərbaycan prezidenti İlham Əliyevin sərgi iştirakçılarına göndərdiyi məktubda aydın şəkildə əksini tapıb. Həmin məktubda deyilir:** "Hörmətli sərgi iştirakçıları! Sizi "ADEX 2016" ikinci Azərbaycan beynəlxalq müdafiə sərgisinin açılışı münasibətilə ölkəmizin paytaxtı Bakı şəhərində səmimi-qəlbdən salamlayıram. Qloballaşma prosesinin geniş vüsət aldığı daim dəyişən dünyamızda dövlətlər intensiv şəkildə təhlükəsizlik çağırışları ilə üzləşirlər. Bu istiqamətdə həyata keçirilən tədbirlər sırasında hərbi-texniki əməkdaşlıq, müasir texnologiyaların və təhlükəsizlik vasitələrinin mübadiləsi məsələlərinin aktuallığı durmadan artmaqdadır.

Ölkəmizin ərazi bütövlüyünə qarşı yönəlmiş xarici təcavüz və terrorizmin nəticəsi olaraq, Azərbaycan dövləti təhlükəsizlik sisteminin möhkəmləndirilməsini və dövlətlərarası əməkdaşlığın inkişaf etdirilməsini daim diqqət mərkəzində saxlayır. Qəbul edilmiş Hərbi Doktrina beynəlxalq müstəvidə ümumbəşəri prinsip və normaları rəhbər tutan Azərbaycanın həm müdafiə potensialını, həm də dost və tərəfdaş dövlətlərlə əlaqələrini gücləndirib. Azərbaycan hazırda regionda ən böyük hərbi potensiala malik ölkədir. Bölgədə ilk mötəbər beynəlxalq müdafiə sərgisi də məhz Bakı şəhərində keçirilib.

İnanıram ki, iştirakçısı olduğunuz sərgi hərbi-texniki əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu məkan kimi müasir təhlükəsizlik çağırışlarına cavab verən yeni yanaşmalara, xüsusilə müdafiə sənayesi sahəsində mühüm təşəbbüslərə yol açacaq və yeni imkanlar üzə çıxaracaq".

***

**"Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi Silahlı Qüvvələrimizin tələbatını ödəyir və buraxılan məhsullar NATO standartlarına cavab verəcək səviyyədədir". Bunu isə müdafiə sənayesi naziri Yavər Camalov sərginin açılışı zamanı etdiyi çıxışında deyib. Nazir bildirib ki, son illər Azərbaycan ordusunun maddi-texniki bazası gücləndirilib:** "Azərbaycanın Silahlı Qüvvələri regionda ən güclü ordulardan biridir. Hərbi-texniki əməkdaşlıq sahəsində uğurlar əldə olunub. "ADEX 2016" sərgisi çərçivəsində əməkdaşlıq imkanlarımız genişlənəcək". Yavər Camalov onu da qeyd edib ki, hazırda 125 məmulatın yaradılması istiqamətində təcrübə uğurla həyata keçirilir.

heç vaxt işğalçı Ermənistanın Azərbaycanla hərbi paritet yaratmasına və üstünlük əldə etməsində imkan verməyəcək.

Buna ölkəmizin iqtisadi və başqa imkanları çatır. Bunun bir təsdiqi də odur ki, Azərbaycan artıq özü İsrail, qardaş Türkiyə və digər dost dövlətlərin hesabına bir sıra silah-sursat və döyüş sistemlərinin, o cümlədən pilotsuz təyyarələrin istehsalına başlayıb ki, bu

Həm ölkə prezidentinin - Ali Baş Komandanın məktubu, həm də hərbi sənaye nazirinin çıxışı əslində bir daha ordumuzun potensialının yüksək səviyyədə olduğu və daha da artırılacağı, həmçinin son günlər Ermənistanda nümayiş etdirilən "İsgəndər" raket komplekslərindən dolayı yaşanan eyforiyanın əsassızlığı haqda düşmən tərəfə aydın isməarışdır. Yəni bununla Ermənistanın hərbi balansın yaranacağına olan ümidləri faktiki alt-üst edilir.

Bu, o deməkdir ki, Bakıda "İsgəndər"lərlə bağlı heç bir xof-zad yaşanmayıb, yaşanmayacaq. Bu da məntiqlidir, çünki Azərbaycanın güclü, adekvat cavab variantları var - hansılar ki, mediada yerli və əcnəbi hərbi ekspertlər səviyyəsində səslənib. Bu, həm də o deməkdir ki, Azərbaycan da Ermənistana növbəti xəbərdarlıq mesajı sayıla bilər. Bakıdakı ikinci beynəlxalq müdafiə sərgisi isə heç şübhəsiz, ölkəmizin müdafiə və hərb qüdrətinin daha da artırılmasında yeni fürsətlər yaradacaq.

Artıq anons edildiyi kimi, Azərbaycan xüsusən də İsrailin yeni hərbi texnologiyalarına maraq göstərir və yəqin ki, tədbir çərçivəsində nümayiş etdiriləcək yeni və müasir sistemlərlə bağlı da ilkin anlaşmalar əldə olunacaq - hansı anlaşmalar ki, yüzdə-yüz Ermənistanın yuxusunu bir az da qaçıracaq.

Təsadüfi deyil ki, Yavər Camalov jurnalistlərə açıqlamasında Azərbaycanın 280 km mənzilli ballistik raket texnologiyasını əldə etmək üçün dünyanın aparıcı şirkətləri ilə danışıqlar apardığını da deyib. Onun sözlərinə görə, Azərbaycan hərbi sənayesinin yeni istehsal etdiyi "Zərbə" pilotsuz uçan döyüş aparatları Ermənistan ordusu üçün əsl kabusa çevrilib. Nazir həmçinin qeyd edib ki, Müdafiə Nazirliyi yüzlərlə belə pilotsuz uçan döyüş aparatı sifariş verib və bugünlərdə müvafiq müqavilə bağlanacaq.

**Nazir onu da bildirib ki, hazırda 125 məmulatın üzərində təcrübə-konstruktor işləri aparılır:** "Prioritet layihələrdən hava-yer, hava-hava, yer-yer raketlərinin üzərində iş gedir. Bundan başqa, dünyanın bir neçə aparıcı şirkəti var ki, onlarla da danışıqlar aparılır". Xatırladaq ki, aprel döyüşlərindən sonra Azərbaycanın raket və artilleriya qoşunlarının komandanı, general Zahid Hüseynov 500 km mənzilli ballistik raketlərin alınması üçün danışıqlar aparıldığını açıqlamışdı.

Lakin hərbi ekspertlərə görə, İrəvanı Naxçıvandan hədəf almaq üçüm qardaş ölkənin verdiyi "Qasırğa" T-300 raket kompleksləri də kifayət edir...

❑ **Siyasət şöbəsi**

# "Putin Krımı işğal edə bilər, Qarsı isə yox..."

## Azərbaycanlı politoloq Türkiyənin iqtisadiyyat nazirinin dediklərini təsdiqlədi

**"Türkiyənin iqtisadiyyat naziri Nihat Zeybəkçinin "əgər 15 iyulda hərbi çevriliş uğurla nəticələnsəydi, Türkiyə torpaqlarının bir hissəsi iki dövlətə - Ermənistana və Kürdüstana veriləcəkdi" açıqlaması həyəcan təbili üçün əsasdır". "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bunu "Yeni Müsavat"a açıqlamasında bildirdi.**



Ekspert razılaşır ki, hərbi çevrilişə cəhdin qarşısının alınmadığı təqdirdə Türkiyədə və bölgədə doğrudan da böyük fəlakətlər baş verəcəkdi: "Mənim çevrilişə cəhdin səhəri günü verdiyim açıqlama bundan ibarət idi ki, çevrilişçilər istəklərinə nail olsaydılar, Türkiyədə Suriyadakına bənzər vətəndaş müharibəsi başlayacaqdı, ordu və cəmiyyət iki, üç, dörd hissəyə bölünəcəkdi. Çünki ordunun, polisin və cəmiyyətin əksər hissəsi FETÖ-nün əmrlərinə tabe olmayacaqdılar, bu isə silahlı toqquşmalara şərait yaradacaqdı. Allaha şükür ki, bunlar olmadı. Türkiyənin iqtisadiyyat nazirinin sözlərinə gəldikdə isə Kürdüstanı anladım, PKK Türkiyənin şərqində fəaliyyətini genişləndirəcəkdi və qopma real çizgilər daşıyacaqdı. Bəs Ermənistan Türkiyədən necə torpaq qoparacaqdı? Ermənistanın təkbaşına hətta "dağılmış" Türkiyədən torpaq qoparmaq təşəbbüslərinə girişməsi real deyil. Əksi olsaydı, Dağlıq Qarabağda da müharibə qaçılmaz olacaqdı. Biz Ermənistanın Türkiyə hesabına torpaqlarını genişləndirməsinə seyrçimi qalacaqdıq?"

**E.Şahinoğlu onu da təsdiqləyir ki, bu halda işə Rusiya qarışacaqdı:** "Yəni hər yer toz-duman olacaqdı. Rusiyanın da Türkiyənin qanuni hakimiyyətini gözardı edərək Ermənistanın Türkiyədən torpaq qoparmaq təşəbbüsünə dəstək verəcəyini düşünmürəm. Putin Krımı işğal edə bilər, Qarsın işğalı onluq deyil. Nihat Zeybəkçinin məntiqindən çıxış etsək, Ermənistana Türkiyədən torpaq qoparmaq işində dəstək verəcək dövlət Rusiya deyilsə, qalır - Amerika Birləşmiş Ştatları. Ancaq Vaşinqtonun da NATO dövlətini parçalayaraq Rusiyanın hərbi-strateji müttəfiqinə torpaq pay verməsi məntiqli görünmür. Buna baxmayaraq, çevriliş nəticəsində Türkiyədə vətəndaş müharibəsi başlasaydı, Suriya timsalında olduğu kimi, qardaş ölkənin də parçalanması planlarını gündəmə gətirənlər tapılacaqdı. Mən bu fikirlərimi paylaşırkən, bəzi dostlarım mənə irad tuturlar ki, hərbi çevriliş uğur qazansaydı belə, Türkiyə bölünməyəcəkdi və misal olaraq qardaş ölkədə baş verən digər hərbi çevrilişləri göstərirlər. Məsələ burasındadır ki, FETÖ-nün planlaşdırdığı 15 iyul çevrilişi bundan əvvəlki heç bir çevrilişə bənzəmir". **Ekspert xatırlatdı ki, Türkiyədə sonuncu hərbi çevriliş 1980-ci ildə baş verib:** "General Kənan Evren Türkiyəni sağ-sol toqquşmalarından, küçə və meydanları qan gölünə çevirənlərdən qurtarmaq üçün çevriliş etmək məcburiyyətində qaldı. Çevrilişsiz keçinmək mümkün idimi? Bəlkə də mümkün idi, çünki üstündən az qala 40 ilə yaxın vaxt keçdikdən sonra bəziləri deyir ki, Evren Türkiyəni illərlə geri saldı, günahsız insanlar həbs olundu, PKK yarandı, Avropa Birliyinə üzvlük ləngidi və s. Əlbəttə, 1980-ci illərin ağır durumunu xatırlamadan hazırda bu haqda fikir yürütmək asandır. Yenə qayıdıram, 15 iyul çevriliş cəhdinə. Fətullah Gülən hərəkatı mason lojasına bənzəyir, dövlət içində dövlət qurublar, dövlət strukturlarını özlərinin və xarici ağalarının xidmətinə yönəltmişdilər. Kənan Evren arxasına ordunu alaraq çevriliş etmişdi, FETÖ isə ordunu parçalayaraq çevriliş etmək istəyirdi. Kənan Evren çevriliş günü əsgər və zabitlərinə "qarşınıza çıxanı güllələyin" əmri verməmişdi, FETÖ üzvləri xuntaçılar isə nəinki günahsız insanları qətlə yetirdilər, Türkiyə tarixinə qara ləkə yazaraq parlamenti güllələbaran etdilər".

❑ **Cavid TURAN**

# İcra başçıları üçün iki yol - ya investisiya, ya istefa...

## PA-nın şöbə müdiri "kiçik padşah"ların qarşısına şərt qoydu; hökumətin rayon rəhbərləri ilə bağlı siyasəti reallaşır


Zeynal Nağdəliyev

**Referendumdan sonra icra başçıları ilə bağlı Azərbaycan hökumətinin ciddi islahatlar aparacağı ilə bağlı yayılan xəbərlər özünü doğrultmaqdadır. Prezident İlham Əliyevin yararlı torpaqların zəbt edilməsi nəticəsində istifadəsiz qalması ilə bağlı verdiyi önəmli açıqlamadan sonra bu məsələ ətrafında gedən müzakirələr qızışır.**

Rayonlarda "kiçik padşah"ların sahibkarların fəaliyyətinə ciddi maneçiliklər törətmələri zaman-zaman gündəmə gəlib. İqtisadi böhranın getdikcə dərinləşdiyi Azərbaycanda problemi aradan qaldırmağın yollarından biri də kənd təsərrüfatının inkişafıdır ki, buna da mane olan qüvvələr sırasında icra başçıları öndə gedir. Gerçəyi ölkə iqtidarı da bilməmiş deyil.

Prezident Administrasiyası (PA) rəhbərinin müavini, PA-nın Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Zeynal Nağdəliyevin icra başçıları barəsindəki son açıqlamaları yaxın zamanlarda bir sıra rayon rəhbərlərinin vəzifəsini itirəcəyinin anonsu sayıla bilər. Z.Nağdəliyev bildirib ki, bundan sonra icra başçılarının fəaliyyətinə, bacarığına qiymət verilərkən əsas meyar kimi onların prezidentin tapşırıqlarına nə dərəcədə əməl etməsi ilə yanaşı, rəhbərlik etdikləri rayonlara nə qədər yerli və xarici investisiya cəlb etmələri olacaq.

PA rəsmisinin açıqlaması icra başçılarına mesaj kimi də qəbul olunmalıdır. Şübhə yox ki, bu açıqlamadan sonra icra başçıları da hökumətin qəzəbinə tuş gəlməmək üçün fəaliyyətlərində dəyişikliklər etməyə, rəhbəri olduqları rayonlara xarici investorların cəlb olunmasına çalışacaqlar. Amma bu dəyişikliyin onların vəzifədə qalmalarına "yaşıl işıq" yandırıb-yandırmayacağını gələcək göstərəcək.

**İqtisadçı ekspert Qadir İbrahimli hesab edir ki, burada icra başçılarından asılı olmayan məsələlər də var:** "Ölkədə mülkiyyət toxunulmazlığı, mülkiyyətə dövlət təminatı yoxdur. Normal məhkəmə sistemi də mövcud deyil. Zülfüqarov qardaşlarının işi və mətbuata çıxarılmayan bu qəbildən olan yüzlərlə iş var. Çoxsaylı iş adamları var ki, obyektlərini əllərindən alıblar, müxtəlif yollarla həbsə atdırıblar. Bu hallar Azərbaycanın investisiya mühiti barədə kifayət qədər mənfi rəylər formalaşdırıb. İndiki halda düşünmürəm ki, icra başçıları yerli və xarici investorları inandırsınlar ki, qoyduqları sərmayəyə heç bir təhlükə olmayacaq, onlar təqibə məruz qalmayacaqlar. Hökumət ilk növbədə, regional idarəetmə sahəsində işlər görməlidir. Obyektləri əllərindən alınmış şəxslərə həmin obyektlər qaytarılmalı, investisiya mühitinə dövlət təminatı verilməlidir. Bu işləri görmək yerli icra başçılarının imkanları xaricindədir. Bunlar mərkəzi qaydada yuxarıdan islahatlar yolu ilə həyata keçirilməli, regional idarəetmə strukturları yaradılmalıdır. İcra başçılarının səlahiyyətləri müəyyən edilməlidir ki, investorların işlərinə müdaxilə etməsinlər. Bu kimi məsələlər həllini tapmayınca, həmin investorları cəlb etmək mümkün olmayacaq".

**İqtisadçı ekspert Z.Nağdəliyevin açıqlamalarının bəzi icra başçılarının vəzifələri ilə vidalaşacağı anlamına gələ biləcəyini də vurğuladı:** "İcra başçılarına elə tapşırıqlar verilir ki, onları həyata keçirmək çətin olur. Ola bilər ki, icra başçılarının bəziləri dəyişsin. Amma idarəetmə islahatları aparılmasa, işdən çıxarılan icra başçıları heç nəyi dəyişməyəcək. Maraqlıdır ki, rayon rəhbərlərinin böyük əksəriyyəti iri ranqlı məmurların, oliqarxların yaxınlarıdır. Onlar rayonlarda həmin məmur və oliqarxların biznes maraqlarını qoruyan şəxslərdir. Ona görə də yeni investisiya cəlb edib, öz himayədarlarına problem yaratmaq istəməzlər. Məsələnin bu tərəfini qətiyyən unutmaq olmaz. Bu problemlərin həllinin yeganə yolu köklü, regional idarəetmə islahatlarından keçir. Yalnız bu haldan sonra investorların ölkəyə axınını təmin etmək olar".

**Q.İbrahimli bəzi rayonlara investisiya cəlb olunmasının mümkünsüzlüyü barədə deyilən fikirlərə də münasibət bildirdi:** "Bazarda rəqabət mühiti yaratmaq lazımdır. Bu mühit yaradılırsa, həmin rayonlara hansısa formada investisiya cəlb etmək mümkündür. Təşəbbüslər bazardan, iş adamlarından gəlməlidir, dövlət təsisatlarından gəlməli deyil. Rəqabət mühiti olarsa, hər bir investor yeni layihələrlə çıxış edə bilər, həmin investisiya mühiti də formalaşar. Əgər həmin şərtlər yerinə yetirilməsə, problemi həll etmək mümkün olmayacaq".

❑ **Cavanşir ABBASLI**

# Əhaliyə satılan qaz bahalaşa bilər

## Ekspertlər bildirirlər ki, ölkədə əhaliyə satılan qazın qiyməti çox bahadır, qaz çıxaran ölkə olaraq vətəndaşa kompensasiya verilməlidir

**Ölkədə yeni bahalaşma dalğasının başlanacağı ehtimalı əhaliyə satılan qazın qiymətinə də diqqət çəkir. Bir müddət əvvəl işığın və suyun qiymətinin bahalaşması qazın da bahalaşacağını düşünməyə əsas yaradır. Ancaq ekspertlər bildirirlər ki, əslində qaz əhaliyə olduqca baha satılır və qiymətinin artırılmasına əsas yoxdur. Yəni ölkə ixrac etdiyi məhsulu xeyli baha qiymətə öz vətəndaşına satır və bundan artığını edə bilməz.**



Bizimyol.info-nun məlumatına görə, MDB ölkələri ilə müqayisədə Azərbaycanda mavi qazın qiyməti də kifayət qədər yüksəkdir. Əhali istehlakçı qrupuna qazın 1000 kub/metri 124 dollara satılır. Amma Rusiyada qazın 1000 kub/metri cəmi 80 dollardır. Qazaxıstanda bu, 70 dollardan da aşağıdır. Ekspert araşdırmasına görə, Azərbaycan MDB-də ən yüksək qiymət tətbiq edən ölkədir. Baxmayaraq ki, Azərbaycanın özü qaz hasil və ixrac edir. Eyni zamanda Azərbaycanın ixrac etdiyi mavi qazın orta qiyməti 49 dollardır. "Azəriqaz", eləcə də Dövlət Neft Şirkəti vətəndaşlara mavi qazı 2,5 dəfə baha qiymətə satırlar. Xarici ölkələrə satılan qazın qiyməti daxili bazarda satılan mavi qazın qiyməti ilə müqayisədə ucuzdur. Məsələn, Türkiyəyə mavi qazın hər 1000 kub/metri 120 dollara satılırsa, daxili bazarda qiymət 124 dollardır. Müqayisələr əhaliyə satılan mavi qazın qiymətinin yüksək olduğunu göstərir.

Ekspertlər "Azəriqaz"ın mavi qaz itkisini əhalinin ödənişləri hesabına ört-basdır etməyə çalışdığını deyirlər. Qazın qiymətinin yüksək olması da onu deməyə əsas verir ki, itkilərdə dəyən ziyan əhalinin vəsaitləri hesabına kompensasiya edilir. Dünyanın heç bir ölkəsində istehlakçılara verilməli olan mavi qazın 50 faizindən artığı itkiyə getmir. Əhalidən qənaət edilən, bəlkə də "oğurlanan" qazın yenidən ARDNŞ-ə qaytarılması və oradan ixraca yönəldildiyi barədə də iddialar var. Lakin ekspertlər bunu inandırıcı saymırlar. Qurum qazı daxili bazarda da bu şərtlərlə "sata" bilər.

**Ekspert Elşad Məmmədov məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, ölkədə qazın əhaliyə baha satılması arzuolunan deyil:** "Ümumilikdə götürdükdə, dünya bazarlarında formalaşmış qiymətlərlə müqayisədə ölkəmizdə qazın qiymətlərinin o qədər baha olduğunu söyləmək olmaz. Lakin ölkədəki əhalinin gəlirlərinin, əmək haqqının səviyyəsinin aşağı səviyyədə olmasını nəzərə alaraq bizim ölkə üçün əhaliyə satılan qazın qiyməti məqbul hesab oluna bilməz. Çünki ölkədə orta aylıq əmək haqqı səviyyəsi, minimum əmək haqqının səviyyəsi arzuolunan dərəcədə deyil. Ona görə də düşünürəm ki, qazın hazırkı qiyməti ölkə iqtisadiyyatını, ilk növbədə sosial sektorun spesifik vəziyyətini nəzərə alaraq, yüksəkdir. Yaxın gələcəkdə qazın qiymətinin daxili bazarda azaldılması perspektivləri isə inandırıcı görünmür. Qaz satışı Dövlət Neft Şirkətinə tabe edilib. Yəni Dövlət Neft Şirkətinin struktur bölməsi kimi fəaliyyət göstərir. Dövlət Neft Şirkətinin də hazırkı maliyyə durumu, yəni xarici borclarının yüksək səviyyədə olması, eyni zamanda neftin qiymətinin kəskin şəkildə azalması çərçivəsində hazırkı vəziyyətdə maliyyə-iqtisadi problemləri imkan verməz ki, yaxın zamanda daxili bazarda qazın ucuzlaşması reallaşdırılsın. Dövlət Neft Şirkəti son illərdə xarici bazarlarda çox aqressiv investisiya siyasəti həyata keçirib, kreditləşməyə gedib. Bunun hamısı hazırkı şəraitdə nəzərə alınır. Daxili bazarda qaz və neft məhsulları satışı milli valyutada həyata keçirilir. Amma borclar xarici valyuta ilə götürülüb. Nəzərə alsaq ki, milli valyutanın yaxın gələcəkdə bir qədər də ucuzlaşması real olaraq görünür, hesab edirəm ki, yaxın gələcəkdə daxili bazarda qazın satışında, qaz qiymətlərində hansısa bir endirimdən söhbət gedə bilməz. Əksinə, hesab edirəm ki, yaxın aylarda qazın da qiymətlərində artım müşahidə olunacaq. Artıq həm işığın, həm suyun qiymətlərində artım olub. Dövlət Neft Şirkətinin rəhbərliyinin də son dövrlərdə apardığı iqtisadi siyasət, daxili bazarda istiqrazların yerləşdirilməsi özü borclanma siyasətinin bir növüdür. Bu istiqamətdə son aylarda müşahidə edilən trendlər, SOCAR-ın fəaliyyətində baş verənlər yaxın gələcəkdə qazın qiymətlərində hər hansı endirim müşahidə olunacağını söyləməyə əsas vermir. Söhbət daxili bazardan gedir".

Ekspert Natiq Cəfərli isə musavat.com-a qeyd edib ki, daxili bazarda qazın ucuzlaşmasını deyil, bahalaşmasını gözləyir. Onun sözlərinə görə, bunun üçün əsas olmasa da, hökumətin buna gedəcəyi ehtimalı yüksəkdir: "Qazın qiymətinin azalmasını deyil, tam əks proses gözləyirəm. Ola bilər ki, qazın qiyməti yaxın gələcəkdə qalxsın. Çünki ölkədə bəzi büdcə ilə bağlı problemləri həll etmək üçün kommunal xərclərdə bu il də müəyyən artım oldu. Suyun qiymətində, elektrik enerjisinin qiymətində artımlar müşahidə olundu. Bu ilin sonunda, yaxud gələn ilin əvvəlində çox güman ki, qazın qiymətində də artım ola bilər. Bu cür edəcəklər ki, büdcədə yaşanan problemlərin bir qismi həll olunsun. Əslində təbii ki, qaz çıxaran, təbii resursları olan ölkələrin modelinə baxdıqda, qərb modelində də, ərəb ölkələrində də əhali üçün müxtəlif güzəştlər nəzərdə tutulub. Məsələn, Norveçdə güzəştlər başqa formada həyata keçirilir. Sosial layihələrin, sosial məsələlərin daha çox pulsuz olaraq dövlət tərəfindən təqdim edilməsi şəklində bu, kompensasiya olunur. Ərəb ölkələrində qiymətin aşağı olması şəklində kompensasiya olunur. Azərbaycanda maraqlı cəhət həm də ondan ibarətdir ki, səmt qazı "Əsrin müqaviləsi"nə uyğun olaraq bizə pulsuz verilir. ABƏŞ tərəfindən, beynəlxalq konsorsium tərəfindən neft çıxarılarkən onunla paralel çıxan səmt qazı Azərbaycan hökumətinə pulsuz verilir. Bu da ildə təqribən 2,5 milyard kubmetr qaza bərabərdir. Yəni illərdir ki, Azərbaycan bu həcmdə qazı havayı alır. Havayı aldığı qazın hesabına heç olmasa Azərbaycan əhalisinə qazı daha ucuz sata bilərdi. Amma bu yol tutulmayıb. Hətta gözləntilərim qiymətin yaxın gələcəkdə artması yönündədir".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 213 (6534) 28 sentyabr 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Azərbaycan hərbi qüdrətini artırmaq üçün yeni stimul alıb

## "İsgəndər" komplekslərinin İrəvan paradında nümayişi işğalçı ölkə üçün əks-effekt yaradacaq; **hərbi sənaye naziri:** "Pilotsuz uçan döyüş aparatlarımız Ermənistan üçün əsl kabusdur..."

**Bakıda "ADEX-2016" ikinci beynəlxalq müdafiə sərgisi açılıb. Gözlənildiyi kimi, sərgidə Azərbaycanın hərbi sənayesinin məhsulları da nümayiş etdirilir. Eyni zamanda tədbir ölkəmizin öz silahlı qüvvələrinin arsenalını daha da gücləndirmək üçün yeni imkanlar açıb. Söhbət ilk növbədə müasir hərbi texnologiyalara malik ölkələrlə hərbi-texniki əməkdaşlığı genişləndirmək üçün yaranan şansdan gedir.**




Bu şansdan heç şübhəsiz, ərazisinin bir hissəsi işğala məruz qalan ölkə olaraq Azərbaycanın mütləq istifadə edəcək. Müşahidəçilərə görə, müdafiə sərgisinin özü elə Azərbaycanın öz hərbi qüdrətinə verdiyi önəmin və diqqətin nümayişidir. Eyni zamanda Ermənistanda son günlər "İsgəndər" raket kompleksləri ilə bağlı yaşanan yalançı eyforiyaya özünəməxsus cavabdır.

***

Yeri gəlmişkən, bu arada Ermənistan rəsmiləri "İsgəndər" operativ-taktiki raketlərini hərbi təlimdə nümayişindən sonra raketlərin Azərbaycana qarşı tətbiqi imkanları barədə daha yüksəkdən danışmağa başlayıblar (virtualaz.org). Məsələn, müdafiə naziri Seyran Ohanyan iddia edib ki, "İsgəndər" komplekslərinin Azərbaycanı "həm Dağlıq Qarabağa, həm Ermənistana" mümkün hücumdan çəkindirəcək.

Əslində təəccüblü deyil. Ermənistanın hərbi-siyasi rəhbərliyi aprel uğursuzluğundan sonra məhz elə bu cür - pafosla danışmalıdır ki, öz xalqını sakitləşdirə bilsin. Ermənistandakı bir çox müstəqil ekspertlər, eləcə də rusiyalı və azərbaycanlı hərbi mütəxəssislər isə belə iddialara və arxayınçılığa əsas görmürlər. Ona görə ki, Azərbaycanın da analoji silahlara malik olduğunu, üstəlik, "İsgəndər" raketləri də daxil, istənilən ballistik, orta mənzilli raketlərə qarşı etibarli raketdən müdafiə sisteminə sahib olduğunu bildirirlər. Söhbət ən əvvəl İsrail istehsalı olan "Sehirli çubuq" raketdən müdafiə sistemindən gedir.

Odur ki, Ohanyanın sevinməsinə ciddi motiv görünmür. Eləcə də onun müavini David Tonoyan sevinməyə tələsməklə yanılır - hansı ki, iddia edib ki, Ermənistanın malik olduğu "İsgəndər" raketlərinin radiusu "Azərbaycan ərazisinin dərinliklərində istənilən mühüm obyekti" hədəf almağa imkan verir. Nəzəri cəhətdən - bəli. Amma kim onun reallaşmasına imkan verər ki?

***

Məsələ də ondadır ki, Azərbaycan öz arsenalındakı daha müasir sistemlər vasitəsilə artıq belə raketlərin olduğu yerləri indidən müşahidə altına almağa, hədəfə götürməyə başlayıb. Bu, o deməkdir ki, onlar hətta istifadə olunmamış məhv edilə bilər.

Bu xüsusda yeri var xatırladaq ki, "İsgəndər" raket kompleksi İrəvan paradına çıxarılandan bir neçə saat sonra Azərbaycan Müdafiə Nazirliyinin rəhbərliyi prezident İlham Əliyevin göstərişi ilə xidməti müşavirə keçirib. Müşavirədə "regionda yaranmış yeni hərbi-siyasi vəziyyət" müzakirə olunub və Ermənistan ərazisində strateji və hərbi təyinatlı obyektlərin aşkar edilib hədəfə götürülməsi barədə tapşırıqlar verilib.

Srağagün isə Azərbaycan müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən Raket və Artilleriya Qoşunlarının hərbi hissə və birləşmələri döyüş atışlı təlimlər keçirib. Nazirliyin məlumatına əsasən, aprel ayında əldə edilmiş döyüş təcrübəsi nəzərə alınmaqla səhra şəraitində keçirilən artilleriya təlimlərində bölmələrin qarşılıqlı əlaqədə fəaliyyəti, atəşin idarə olunması və müxtəlif şəraitli atəş mövqelərindən tapşırıqlar yerinə yetirilib.

Optik və radiotexniki kəşfiyyat vasitələri, pilotsuz uçan aparatlar, eləcə də xüsusi təyinatlıların artilleriya kəşfiyyatı icra edilməklə şərti düşmənin döyüş düzülüşünün bütün dərinliyində örtülü və açıq mövqelərdəki tək və qrup halında, o cümlədən hərəkətdə olan hədəflər məhv edilib. Təlimə cəlb olunan müxtəlif raket sistemləri və artilleriya qurğuları heyətlərinin döyüş hazırlığı, bacarığı və qarşılıqlı fəaliyyəti Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib.

Bunun ardınca isə Azərbaycan Silahlı Qüvvələrinin daha irimiqyaslı təlimlərinin keçirilməsi planlaşdırılır. Başqa sözlə, işğalçının arxayınlığı və eyforiyası üçün zərrəcə zəmin yoxdur, gözlənilmir.

***

Beləliklə, Azərbaycanın düşmənin "İsgəndər" təxribatı və Ağdamdakı təlimlərinə kifayət qədər operativ şəkildə çoxşaxəli və effektli kontur addımlarla cavab verib və verməkdə davam edəcək. Əslinə qalsa, İrəvandakı hərbi paradda "İsgəndər" komplekslərinin nümayişi Azərbaycana öz hərbi qüdrətini daha da artırmaq üçün əlavə stimul verib. Bu stimuldan şübhəsiz ki, istifadə olunacaq.

Bundan ötrü Azərbaycanın imkanları Ermənistandan fərqli olaraq, qat-qat genişdir. Çünki Azərbaycan öz hərbi arsenalını təkcə Rusiya hesabına deyil, qardaş Türkiyə, İsrail, Pakistan, Ukrayna, Belarus, Çin kimi ölkələr hesabına da gücləndirə bilər və gücləndirir də.

Bunu son olaraq Bakıda açılan ikinci beynəlxalq müdafiə sərgisində Azərbaycanın hərbi sənaye naziri Yavər Camalovun jurnalistlərə verdiyi açıqlama da təsdiq edir. Musavat.com-un məlumatına görə, nazir Azərbaycanın 280 km mənzilli ballistik raket texnologiyasını əldə etmək üçün dünyanın aparıcı şirkətləri ilə danışıqlar apardığını da deyib. Onun sözlərinə görə, Azərbaycan hərbi sənayesinin yeni istehsal etdiyi "Zərbə" pilotsuz uçan döyüş aparatları Ermənistan ordusu üçün kabusa çevrilib. Qeyd edib ki, Müdafiə Nazirliyi yüzlərlə belə pilotsuz uçan döyüş aparatı sifariş verib və bugünlərdə müvafiq müqavilə bağlanacaq.

Nazir onu da bildirib ki, hazırda 125 məmulatın üzərində təcrübə-konstruktor işləri aparılır: **"Prioritet layihələrdən hava-yer, hava-hava, yer-yer raketlərinin üzərində iş gedir. Bundan başqa, dünyanın bir neçə aparıcı şirkəti var ki, onlarla da danışıqlar aparılır".**

Xatırladaq ki, aprel döyüşlərindən sonra Azərbaycanın raket və artilleriya qoşunlarının komandanı, general Zahid Hüseynov 500 km mənzilli ballistik raketlərin alınması üçün danışıqlar aparıldığını açıqlamışdı.

Lakin hərbi ekspertlərə görə, İrəvanı Naxçıvandan hədəf almaq üçüm qardaş ölkənin verdiyi "Qasırğa" T-300 raket kompleksləri də kifayət edir.



# Azərbaycan və Rusiya hərbi saziş imzaladı

**"Rusiya helikopterləri" holdinqi və "Silk Way Helicopter Services" müəssisəsi Azərbaycanda "Mi-8/17" helikopterlərinin təmiri və onlara xidmət göstərilməsi üzrə xidmət mərkəzinin açılması haqqında saziş imzalayıb. Bu barədə jurnalistlərə açıqlamasında holdinq satış sonrası xidmət üzrə baş direktorunun müavini İqor Çeçikov məlumat verib (report). Sənəd dünən "ADEX-2016" sərgisi çərçivəsində imzalanıb.**

Azərbaycan tərəfdən sənədi "Silk Way Helicopter Services" müəssisəsinin rəhbəri Azər Sultanov, Rusiya tərəfdən isə holdinq satış sonrası xidmət üzrə baş direktorunun müavini İqor Çeçikov imzalayıb. Çeçikovun sözlərinə görə, gələcəkdə bu mərkəzin Rusiya istehsalı olan müxtəlif növ hərbi helikopterlərin təmiri və onlara xidmət göstərilməsi üçün imkanlarının genişləndirilməsi məsələsi nəzərdən keçirilir. "Müvafiq danışıqlar artıq aparılır" - o bildirib.

YENİ MÜSAVAT
N 213 (6534) 28 sentyabr 2016









# Dünyanın heyrətamiz silahları Bakıya gətirildi

## 4 günlük silah sərgisində tanklar, zirehli texnikalar, döyüş sursatları nümayiş olunur

**Sentyabrın 27-də Bakı Expo Mərkəzində "ADEX 2016" ikinci Azərbaycan Beynəlxalq müdafiə sərgisi açılıb. Musavat.com xəbər verir ki, sərgidə dövlət və hökumət rəsmiləri, xarici ölkələrin Azərbaycandakı səfirliklərinin, beynəlxalq təşkilatların təmsilçiləri, bir neçə ölkənin müdafiə naziri və müxtəlif ölkələrin nazirliklərinin nümayəndələri iştirak edib.**

Tədbirdə Azərbaycanın baş nazirinin birinci müavini Yaqub Eyyubov prezident İlham Əliyevin sərgi iştirakçılarına təbrik məktubunu oxuyub. Müdafiə sənayesi naziri Yavər Camalov çıxış edərək ölkəmizdə və regionda ikinci dəfə keçirilən Azərbaycan Beynəlxalq müdafiə sənayesi - "ADEX 2016" sərgisinin açılması münasibətilə nümayəndə heyətlərini, şirkətlərin təmsilçilərini və ziyarətçiləri təbrik edib.

**Ölkəmizdə müasir texnologiyalara əsaslanan müdafiə sənayesi müəssisələrinin fəaliyyətə başladığını deyən Y.Camalov bildirib ki, Azərbaycanın hərbi qüdrəti durmadan artır. Nazir son illərdə ölkəmizin müdafiə sənayesinin uğurla inkişaf etdiyini vurğulayıb. O, diqqətə çatdırıb ki, müdafiə sənayesi müəssisələri tərəfindən buraxılan hərbi təyinatlı məhsulların çeşidi artıb:** "Müdafiə Sənayesi Nazirliyi bir çox sərgilərin iştirakçısı olub. Nazirlik bu sərgilərlə və bazara çıxardığı məhsullarla özünü təsdiqləyib. Nazirliyin müəssisələrində istehsal olunan və sayı artan məhsullar xaricdə keçirilən beynəlxalq müdafiə sənayesi sərgilərində də nümayiş etdirilir.

"ADEX 2016" Azərbaycan Beynəlxalq müdafiə sənayesi sərgisi ikinci dəfə keçirilsə də, artıq regionun ən genişmiqyaslı sərgisinə çevrilib. "ADEX-2016"da 34 ölkədən 216 şirkət, 19 ölkədən 25 rəsmi nümayəndə heyəti iştirak edir. Pavilyonlarda müasir silah və texnikalar nümayiş olunur".

Sərgidə Belarus, İsrail, Çin, Pakistan, Rusiya, Serbiya, Türkiyə, Fransa və Çexiya milli qrupları öz ekspozisiyalarının miqyası ilə fərqlənirlər. Şirkətlərin sayına görə ən böyük pavilyonlar Türkiyəyə (42 şirkət), İsrailə (14 şirkət) və Rusiyaya (14 şirkət) məxsusdur.

Sərgi çərçivəsində Azərbaycanın milli pavilyonunu ölkənin milli müdafiə kompleksini təqdim edir. Burada Müdafiə Sənayesi Nazirliyinin müəssisələri müdafiə və xüsusi təyinatlı məhsulları, eləcə də silah-sursat nümunələri nümayiş etdirilir. Ümumilikdə sərgidə quru qoşunları və hərbi-hava qüvvələri üçün texnika və silahlar, hərbi aviasiya silahları, hava hücumundan müdafiə üzrə sistem və vasitələr, xüsusi təyinatlı avadanlıq və vasitələr, informasiya texnologiyaları, kosmik texnologiyalar, ordunun inzibati və texniki təchizatı nümayiş etdirilir.

Bu sərgi layihəsinin özəl xüsusiyyətlərindən biri mühafizə və müdafiə vasitələri, xilasetmə, mühafizə texnikası, sənaye və nəqliyyat təhlükəsizliyi sistemləri, eləcə də informasiya və rabitənin mühafizəsi, müasir yanğın təhlükəsizliyi vasitələri üzrə geniş məhsul spektrinin vahid konsepsiya çərçivəsində tammiqyaslı nümayişidir.

Sərgini dolğun işgüzar proqram müşayiət edəcək. Bura seminar və təqdimatlarla yanaşı, sənaye təyinatlı nazirliklər, istehsalçı şirkətlərin rəhbərləri və sifarişçilərlə çoxsaylı ikitərəfli görüşlər daxildir.

Bu görüşlər çərçivəsində artıq bəzi əməkdaşlıq müqavilələrinə də imzalar atılıb. Məsələn, Azərbaycan və Rusiya *("Silk Way Helicopter Services" və "Rusiya helikopterləri" holdinqi)* müəssisələri Azərbaycanda "Mi-8/17" helikopterlərinin təmiri və onlara xidmət göstərilməsi üzrə xidmət mərkəzinin açılması haqqında saziş imzalayıb.

Sərgi çərçivəsində Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovun Türkiyənin milli müdafiə naziri Fikri İşıkla görüşü olub. Görüşdə iki ölkə arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın daha da genişləndirilməsi, eləcə də mütəxəssislərin birgə hazırlığı, təcrübə mübadiləsi və digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub.

Zakir Həsənov həmçinin Belarusun müdafiə naziri general-leytenant Andrey Ravkovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə də görüşüb. Görüşdə Azərbaycanla Belarus arasında hərbi-texniki sahədə əməkdaşlığın inkişaf perspektivləri, müasir hərbi texnologiyaların tətbiqi imkanları, qarşılıqlı təcrübə mübadiləsi və tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Müdafiə Sənayesi Nazirliyi və "Caspian Event Organisers" "CEO" şirkəti "ADEX" sərgisinin təşkilatçıları qismində çıxış edirlər. Müdafiə Nazirliyi sərgiyə dəstək göstərir. Sentyabrın 30-dək davam edəcək sərgi çərçivəsində seminar, təqdimat, ikitərəfli görüşlər davam edəcək.

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

# Hökumət 22 milyon itirəndən sonra Çin yuanından imtina etdi

## **Vüqar Bayramov:** "Postneft dövründə Azərbaycan valyuta ehtiyatlarını qoruyub saxlamağa çalışmalıdır"

**Azərbaycan Çin yuanı və digər inkişaf etməkdə olan ölkələrin valyutalarına investisiya yatırmaq planlarını təxirə salıb. Bu barədə jurnalistlərə açıqlamasında Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Elman Rüstəmov bildirib. Onun sözlərinə görə, hazırda dünya iqtisadiyyatında baş verən mənfi tendensiya nəzərə alınır, odur ki, Azərbaycanın yuana və digər inkişaf etməkdə olan ölkələrin valyutalarına investisiya qoyması münasib deyil. AMB sədri əlavə edib ki, bununla əlaqədar dünya iqtisadiyyatının sabitləşdiyini gözləmək lazımdır. Ekspertlər baş bankirin bu addımını müsbət qiymətləndirir və bildirirlər ki, daha öncə Rusiya bazarında, Çin yuanına, Türkiyə lirəsinə edilmiş yatırımlar hesabına Azərbaycan külli miqdarda vəsait itirib. Bu səbəbdən inkişaf etməkdə olan dövlətlərin valyutası hazırkı durumda etibarlı yatırım vasitəsi deyil. Bununla hökumət valyuta ehtiyatlarını riskə atmamalıdır.**



Xatırladaq ki, ötən ilin avqustunda Neft Fondu yuanın devalvasiyaya uğraması nəticəsində 22 milyon dollar itirmişdi. Həmçinin fondun Rusiyada aldığı daşınmaz əmlak rublun devalvasiyaya uğraması nəticəsində kəskin dəyər itirdi. Beləliklə, Neft Fondu sadəcə yanlış hesablanmış yatırımlar üzündən milyonlarla manat vəsaiti heç bir valyuta əməliyyatı keçirmədən havaya sovurdu.

**"Yeni Müsavat"a açıqlamasında məsələyə münasibət bildirən iqtisadçı Vüqar Bayramov vurğuladı ki, inkişaf etməkdə olan ölkələrin valyuta bazarına investisiya qoymaq hazırda çox risklidir:** "İstər Neft Fondu, istərsə də Mərkəzi Bank valyuta alarkən çalışmalıdır ki, əsaslandırılmış bir yığım qərarı olsun. Ancaq çox təəssüf ki, əvvəlki praktika göstərir ki, xüsusən də Dövlət Neft Fondunun təcrübəsində vəsaitlərin heç də gəlirli olmayan valyutaların alınmasına yönəldilməsi halları baş verib. Dövlət Neft Fondunun rubla, Türkiyə lirəsinə investisiya etməsi, o cümlədən Çinin səhm bazarı da daxil olmaqla, yuanla investisiya yatırması nəticə etibarilə bu qurumun rezervlərinə mənfi təsir göstərdi. Neft Fondu bu valyutaların hər birində müqayisəli şəkildə zərərə düşdü. Təbii ki, söhbət vəsaitlərin hansı valyutada saxlanmasından və gəlir əldə edilməsindən gedir. Söhbət xırda maliyyə itkilərindən yox, milyonlarla ifadə olunan ziyandan gedir. Bəzi hallarda dövlət vəsaitlərinin doğru istiqamətə yönəldilməməsi nəticədə rezervlərin həcmində artım faizini xeyli azaldır".

**V.Bayramovun sözlərinə görə, bu aspektdən qiymətləndirdikdə Mərkəzi Bankın gec də olsa yuanda və digər inkişaf etməkdə olan ölkələrin valyutalarında investisiya etməməklə bağlı qərarı doğru qərardır:** "Hətta bu, gecikmiş qərardır. Bunu əvvəllər də etməyə ehtiyac var idi. Valyuta alınarkən sadəcə ölkələrin yaxın olması, qonşuluq münasibətləri nəzərə alınmamalıdır, iqtisadi əsaslandırma olmalıdır. Dünya bazarına çıxışı zəif olan valyutalara investisiya qoyulmasına ehtiyac yoxdur. Gələcəkdə avro və ABŞ dollarına və bu ölkələrin iqtisadiyyatına yatırım edilməsi, həmin valyutalarda vəsaitin saxlanılması daha məqsədəuyğundur. Postneft dövründə Azərbaycan valyuta ehtiyatlarını qoruyub saxlamağa çalışmalıdır. Artıq rezervlərimizi ikinci dərəcəli ölkələrin valyutalarına yönəltməklə azalda bilmərik, əksinə, onların qorunması və artırılması vacibdir. Bu mənada istər Mərkəzi Bank, istərsə də Dövlət Neft Fondu valyuta qərarlarını ciddi hesablamalar əsasında qəbul etməlidirlər. İndiki məqamda yenə də avro və dollar arasında səbət bölgüsünün aparılmasına ehtiyac var. Bu mənada hər iki qurum itkilərini azaldıb gəlirlərini artıra bilər. Birmənalı şəkildə əvvəlki dövrlərdə olduğu kimi, Rusiya, Çin, hətta Türkiyə valyutasına investisiya qoymaq rentabelli deyil".

**Daşınmaz əmlak bazarına qoyulan investisiyaların səmərəliliyinə gəlincə, V. Bayramov bunun müvafiq ölkənin inkişaf göstəricilərindən asılı olduğunu bildirdi:** "Rusiya və Türkiyənin daşınmaz əmlak bazarına investisiya qoymaq məqsədəuyğun deyil. Ancaq inkişaf etmiş ölkələrin uyğun qiymətə olan daşınmaz əmlak bazarına investisiya yatırmaq olar. Avrozona və ABŞ-ın daşınmaz əmlak bazarı növbəti illər üçün də səmərəli görünür. Ancaq burada qiymət çox önəmlidir. Bəzi hallarda heç də uyğun olmayan qiymətə daşınmaz əmlakın alınması hallarına rast gəlinir. Bütün faktorlardan öncə olan odur ki, əmlak bazar qiymətindən aşağı qiymətə alınsın və rentabelli olsun. İndiki məqamda məkan da çox önəmlidir, region ölkələri daşınmaz əmlak alınması baxımından rentabelli deyil. Bu ölkələrdə daşınmaz əmlakın qiymətinin artacağı haqqında proqnozlar yoxdur".

❑ **Nərgiz LİFTİYEVA**

**Bəzən yollarda yumoristik film səhnəciyini xatırladan hallar baş verir: ortada piyada zolağı yox, piyada yolu keçməyə hazırlaşır, amma risk etmir... Yolun yarısına qədər gəlir, qayıdır, sonra yenə qayıdır... Halbuki 100 metr qabağa keçsə, orda piyada keçidi olduğunu görəcək. Bu arada isə sürücü "rəml atıb fala baxmaq" zorundadır. Görəsən, sərnişin risk edib yolu keçəcək, təcili əyləcə basmalı, ya yox?**

# "Zebrada gəzən ölüm" - piyada ölümlərinin qorxudan statistikası

## Piyadalar "sürücülər aqressivdir" deyir, ekspert isə piyadalara qarşı cəzaların sərtləşdirilməsini istəyir



### Qanun həm sürücü, həm də piyadaya eyni dərəcədə məsuliyyət verir

Doğrudur, bu kimi hallarla mübarizə aparmaq üçün yol polisləri bir çox yerlərdə reydlər keçirir və piyadaları cərimələyirlər. Amma şəhərin hər yerində belə monitorinqlərin keçirildiyini demək olmaz. Bundan başqa, sərnişinlər bir çox hallarda piyada keçidlərindən tənbəllik üçün istifadə etmirlər. Pilləkənlə qalxmaq, düşmək... vaxt və enerji itkisi olduğu üçün çoxları bundan imtina edir. Halbuki piyada keçidlərinin böyük əksəriyyətində elektron pilləkənlərdən istifadə olunur.

Bununla belə, piyada ölümü, ya da yaralanması ilə nəticələnən yol qəzalarında bir qayda olaraq sürücü cəzalandırılır. Qanunvericilikdəki detallara diqqət edək.

"Yol hərəkəti haqqında" Qanunda və "Yol Hərəkəti Qaydaları" və İnzibati Xətalar Məcəlləsində yollarda baş verən yol-nəqliyyat hadisələrində sürücü ilə yanaşı, piyadanın da məsuliyyəti göstərilib. Qanunvericiliyə görə, piyadanın avtomobil yollarında yalnız piyada keçidindən istifadə etməsi vacib hesab edilib. Bundan başqa, sənəddə piyadaların yollarda piyada zolağı olmayan ərazisindən keçməsi qadağan olunub və bunun üçün müvafiq miqdarda cərimələr də nəzərdə tutulub. Əhalinin və avtomobillərin sıxlıq təşkil etdiyi ərazilərdə yol polisi bu cür hallara nəzarət edir və gün ərzində onlarla piyada cərimələnir, onların avtomobil yollarına çıxmasının qarşısı alınır.

**2016-cı ilin 8 ayı ərzində respublikanın avtomobil yollarında Azərbaycanda 1331 yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə 490 nəfər həlak olub, 1409 nəfər isə yaralanıb.**

**Bunu APA TV-yə açıqlamasında Daxili İşlər Nazirliyi Respublika Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev deyib.**

**O bildirib ki, yol qəzaları ötən ilin müvafiq dövrü ilə müqayisədə 128 fakt, qəzada ölənlərin sayı 93, yaralananların sayı isə 123 fakt azalıb:** "Bu da müvafiq olaraq qəzaların 8,8 faiz, qəzada ölənlərin 16 faiz, yaralananların isə 8 faiz azalması deməkdir. Qəzaların 440-ı Bakı şəhərində qeydə alınıb ki, nəticədə 118 nəfər həlak olub, 463 nəfər isə yaralanıb. Bu, təxminən paytaxtda baş verən qəzaların sayının 18 faiz azalması deməkdir. 22 faizdən çox ölənlərin sayı, 21,1 faiz də yaralananların sayı azalıb".

**"Qəzaların çoxu piyadaların vurulması ilə bağlı olan faktlardır" deyən DYP rəsmisinin sözlərinə görə, bu, ümumi hadisələrin 40 faizini təşkil edir:** "Səkkiz ay ərzində 539 hadisə nəticəsində 195 piyada həlak olub, 394 nəfər isə yaralanıb. Sərxoş sürücülərlə bağlı statistikada da vəziyyət əvvəlki illərlə müqayisədə qənaətbəxşdir. Əvvəllər sərxoş sürücülər tərəfindən törədilən qəzalar ümumi hadisələrin 2,7 faizini təşkil edirdisə, artıq bu səkkiz ay ərzində sərxoş sürücülər tərəfindən törədilən qəzalar ümumi qəzaların 1,9 faizini təşkil edib. Yəni ümumilikdə 9 ay ərzində 26 belə qəza hadisəsi baş verib, 12 nəfər həlak olub, 28 nəfər isə yaralanıb. Yol-nəqliyyat hadisələri zamanı 35 nəfər azyaşlı dünyasını dəyişib, 124 nəfər isə yaralanıb. Bu da 2015-ci illə müqayisədə 17 ölüm hadisəsinin və 9 yaralanma hadisəsinin azalmasıdır".

8 ay ərzində Bakı şəhəri üzrə baş vermiş qəzaların 57 faizi piyadaların vurulması ilə bağlıdır. Bu, kifayət qədər yüksək nəticədir. Bütün hallarda problemin əsas səbəbkarı kimdir, bu halları necə aradan qaldırmaq mümkündür kimi suallar aktual müzakirə olunur.

### Elməddin Muradlı: "Piyada cərimələrinin ödənilməsi mexanizmi sərt olmalıdır"

**Yol-nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, son vaxtlar piyada vurmaları çoxalıb. Onun sözlərinə görə, Bakı şəhərində ümumi qəzaların yarıdan çoxu - 57 faizi məhz piyadaların avtomobillərlə vurulması nəticəsində baş vermiş qəzalardır:** "Burada da demək olmaz ki, bütün hadisələrdə sürücülər təqsirlidir. Sadəcə, keçmişdən qalan bir ənənə və hüquq sistemindəki bəzi boşluqlar qəzaları araşdıran vəzifəli şəxslərə imkan verir ki, onlar hadisəni istədikləri istiqamətə yönləndirsinlər. Bu, çox səhv yanaşmadır. Hələ indiyə qədər bir dəfə məhkəmə qarşısına bir piyada çıxmayıb bəlkə də. Çıxıbsa da, biz bilməmişik. Amma olsaydı, bilərdik".

**E.Muradlı dedi ki, piyadaların səhlənkarlığı ucbatından çoxlu sayda qəzalar baş verir, insanlar həlak olur, ağır yaralanır, maddi ziyana düşür. Onun sözlərinə görə, məsələnin araşdırılması zamanı piyadalar çox vaxt kənarda qalır:** "Sərxoş vəziyyətdə yola çıxıb qəzaya səbəb olan piyadalar var. Bəzilərini maşın vurub öldürübsə, buna görə sürücünü məsuliyyətə cəlb etmək nəyə lazımdır? Sürücünü o halda məsuliyyətə cəlb etmək olar ki, o qəzanın qarşısını almaq üçün nəsə etməsin. Amma sürücü kenquru kimi 5 metrdən bir yolla tullanan piyadaların hansını vurmasın? Sağa baxırsan soldan keçir, sola baxırsan sağdan keçirlər. Özü də rahatlıqla. Sanki yolda yox, istirahət mərkəzindədilər. Şüurlu insan düşünür ki, şüursuz texnika, maşın dayana biləcək. Bunun beyni ola-ola anlamır ki, o texnikadır, amma öz canını texnikaya etibar edir ki, dayanacaq. Bəs dayanmasa nə olacaq? Düşünürəm ki, bu sahədə maarifləndirmə işi aparılmalıdır. Orta məktəblərdə, televiziya və radiolarda ciddi iş görülməlidir. Məsuliyyətsiz piyadaları elə cəzalandırmaq lazımdır ki, başqalarına dərs olsun".

**Müsahibimizin fikrincə, piyadaların bu cür məsuliyyətsizliyi psixoloji amillərlə də bağlıdır. E.Muradlı xatırlatdı ki, evində ciddi problemi olanlar yolun ortası ilə rahatlıqla gedir, sürücü ona irad bildirəndə isə "bağışla, fikirli idim" deməklə kifayətlənir:** "Amma belə olmaz. Yola çıxırsansa ayıq olmalısan. Valideynlər əlində telefonla uşaqlarını yoldan keçirirlər. Yolun ortasında nəsə yazır telefonda və uşaq da ona baxıb öyrənir. Valideynlər daha məsuliyyətli olmalıdır".

**Ekspert hesab edir ki, piyadalara qarşı cərimələrin sərtləşdirilməsinin tərəfdarı olmasa da, indiki cərimələrin ödənilməsi mexanizminin sərt olmasının tərəfdarıdır:** "Sürücülərdən necə faizlə alırlarsa, piyadalardan da o cür almaq lazımdır. Bankdan kredit götürəndə o cərimə tutulsun, maaş kartından çıxılsın, təqaüdündən çıxılsın, evindən hansısa bir əşyanı məhkəmə icraçısı aparıb satıb cəriməni ödəsin. Piyada da görsün ki, onun əməlinin axırı hara gedir. Bəlkə ondan sonra nəsə düzələr. Yoxsa elə piyadalar var ki, ildə 5 dəfə cərimə olunur, heç vecinə də deyil. Çünki ödəmir və ödəməyəndə də heç bir cəza almır. O da öz bildiyini edir".

### Piyada şikayətlənir: "Sürücülər sükan arxasında aqressivləşirlər"

**Amma ekspertlərin və statistikanın əksinə olaraq, piyadalar da baş verən qəzalarda sürücüləri günahkar sayır. İctimai nəqliyyatdan istifadə edən Elnur Məlikov adlı müsahib deyir ki, sürücülər sükan arxasına keçəndə aqressivləşirlər:** "Onlar üçün iki saniyə piyadaya yol vermək böyük iş deyil. Amma sanki qəsdən edirlər, maşını adamın üstünə sürürlər. Nəzərə almırlar ki, maşın dəmirdəndir, hətta adama yüngül dəyəndə də xətər yetirir. Hər şey qanun-qayda ilə olmur axı. İnsanlıq, humanizm də var. Piyada səhv edə bilər, amma buna görə onu yaralamaq lazımdır?"

Statistika "qanlı", hər iki tərəf isə bu məsələdə özünü haqlı bilir. Çarə qanunlardakı boşluqları aradan qaldırmaqdır. Əks halda, yaxın gələcəkdə "piyada ölümləri" ilsonu ölüm statistikasının əhəmiyyətli faizini təşkil edəcək.

❑ **Sevinc TELMANQIZI**

# Tərgidilməli olan seçki vərdişləri



**Samir SARI**

**Nəyəsə vərdiş eləmək pis şeydir. Lap yaxşı şey də olsa, onu "olmazsa, olmaz"a çevirmək, vərdiş qulu olmaq düzgün deyil. Pis şeylərə vərdiş eləmək isə daha pisdir.**

Budur, millət qələmə, klaviaturaya sarılıb o günkü referendum səsvermədə seçki qutusuna topa-topa bülleten dolduranlardan yazır, videolar, şəkillər paylaşır. Baxırsan ki, Tağı Əhmədov demişkən, onurğa sütunun bitən yeri ilə manevr etməyin xeyri yoxdur, hər şey göz önündədir, danmaq mümkün deyil.

Bir tip adamlar var, hökumətin əbədi müdafiəçiləridir, təkzibedilməz faktları da təkzib və inkar etməyə cəhd göstərirlər. Onlar da buna vərdiş ediblər. Amma bu yaxşı vərdiş deyil. Sabah böyük hörmət, rəğbət bəslədiyin siyasətçi, türkün sözü, müdhiş bir yanlış yapsa, nə edəcəksən, vərdişin üzrə müdafiə edəndə, biabırçılıq olacaq.

İndi qayıdaq seçkilərdə qutu dolduranların yanına. Onlar hələ sovet dövründən belə vərdiş ediblər. Seçkidirsə, qutular ləbələb doldurulmalıdır. Sovet vaxtı kvorum deyilən bir şey vardı, komissiya üzvləri qutu doldurmağa məcbur idilər. Qutu doldurmaq vərdişi də o üzdən formalaşıb, inkişaf edib.

Düzdür, sovet dövründə də, müstəqillik illərində də camaat seçkiyə gəlmirdi deyə, seçkilərdə kvorum haqq-hesabını ləğv elədilər, təxminən "seçkiyə gələn gəlsin, gəlməyən də cəhənnəmə gəlsin" variantı əmələ gətirdilər, amma komissiya üzvləri qutudoldurma vərdişlərini tərgidə bilmədilər.

Sizə deyim ki, hazırda bu işi görən sonuncu komissiya üzvü ölüb gedəndən sonra da qutudoldurma proseduruna riayət ediləcək. Çünki bu, nəsildən-nəslə ötürülən bir vərdişdir, az qala genetik koda daxil olan şeydir.

Əminliklə deyə bilərəm ki, hətta hökumət bu günə bu gün rəsmən əmr, göstəriş, sərəncam, fərman və sair bu kimi şeylər versə ki, heç kəs artıq qutu doldurmasın, yenə peşəkar qutudolduranların qarşısını heç bir qüvvə ala bilməz. Məntəqədə dava salar, müşahidəçilərlə saçyolduya çıxar, polisə müqavimət göstərər, adam döyüb tutularlar, seçkini pozarlar, amma qutunun doldurulmasını təmin edərlər.

Yaxşı ki, hökumət də elə bir qanun vermir. Yəqin, ona görə vermir ki, vərdişkarların öz vərdişləri üzrə hərəkət edərək seçkini pozacaqlarından qorxur.

Əslində MSK onları yığıb treninq keçməlidir, başa salmalıdır ki, xanımlar və bəylər, siz nahaq yerə əziyyət çəkməyin, qoyun o şəffaf qutu toxunulmaz şəkildə bir güncdə dursun, əl vurmayın, kim gəlir, səs verir, versin, siz axırda qutunu açın, nə qədər səs çıxsa, "Allah bərəkət versin" deyə sayın, protokollaşdırın, gətirin dairə seçki komissiyalarına. Vəssalam. Məgər DSK-larda təzə sətirdən, abzasdan yeni protokol tərtib etməyi bilmirlərmi? Əla bilirlər. İndiyə qədər minlərlə protokolu yenidən tərtib etməyiblərmi? Ediblər.

Belədirsə, məntəqələrdə biabırçılıqlar törədib filmlərə çəkilmək, dünyanı dolaşan şəkillərə düşmək nəyə lazımdır? Sizə nəticə lazımdır, alın, bu da sizə nəticə - 92 faiz.

Məntəqədəki nəticələr, bülletenlər, protokollar kimə lazımdır? Kimdir bunun davasını aparan, komissiya yaradan, "hər şeyi yoxlamalıyıq, səsləri yenidən saymalıyıq" deyən? Heç kəs. Seçki qurtardı, səslər sayıldı, qapı bağlandı, iş bitdi.

Budur, AMİP 18 ildir tələb edir ki, 1998-ci il seçkilərində məntəqə seçki komissiyalarında nəticələr mətbuatda dərc olunsun. Baxan varmı? Yoxdur. Olacaqmı? Olmayacaq.

Ona görə də hökumət bu işə bir əncam çəkməlidir, duruma əl qoymalıdır, MnSK üzvlərinə seçki günü farağat durmağı tapşırmalıdır, lazım gəlsə, komissiya üzvlərinin hamısını dəyişməlidir.

Yoxsa, vallahi, camaat nahaq yerə üz-göz olur, yaxşı-yaman söhbətlər baş verir, adamlar müəllimlərdən, büdcə təşkilatlarında işləyənlərdən narazı qalır.

Heç "karusel"ə də ehtiyac yoxdur. Zəhmətkeşləri əsir-yesir etmək nəyə lazımdır ki? Onsuz da onlar səhərdən axşama qədər 40 məntəqədə səs versələr də, bu, sonradan yazılan səslərin yarısını belə təşkil etmir. Axşam DSK-da, MSK-da rahat kabinetdə oturub, 46 faizi 86 etmək mümkündürsə, yazıq süpürgəçiləri yeddi saat boyunca "səsverən" işində çalışdırmaq artıq işdir.

Əslində heç seçki də lazım deyil. Olmasa, kim nə deyəcək ki. Başqa illərdə camaat dinc, yanaşı, mehriban yaşayır, amma hər dəfə seçki olanda qohum qohumla, qonşu qonşusu ilə üz-göz olur, küsüşürlər. Barışıq qalır bir də Novruza, axır çərşənbəyə.

YENİ MÜSAVAT
N 213 (6534) 28 sentyabr 2016

# QMİ Məhərrəm ayı ilə bağlı fətva verdi: oktyabrın 12-də Aşuradır

## Məhərrəm ayının 1-i oktyabr ayının 3-nə təsadüf edir

**Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Məhərrəm ayının başlanması ilə əlaqədar tədbir keçirilib. "Report"un xəbərinə görə, tədbirdə QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə, Diniq Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, QMİ-nin Elmi-Dini Şurası və Qazılar Şurasının üzvləri, qurumun səlahiyyətli nümayəndələri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmiləri, habelə dini icma rəhbərləri və tanınmış elm adamları iştirak ediblər.**

Tədbir Qurani-Kərimin tilavəti ilə başlanıb.

Çıxış edən QMİ sədri, Şeyxülislam Allahşükür Paşazadə İslamda müqəddəs aylardan sayılan Məhərrəm ayının özəlliklərindən, Kərbəla hadisəsi və Aşura gününün mahiyyətindən danışıb, Məhərrəm ayının dini qaydalara və dövlətin qanunlarına uyğun keçirilməsinin vacibliyini vurğulayıb, bu barədə axund və imamlara müvafiq tapşırıq və tövsiyələrini verib.

Daha sonra QMİ Qazılar Şurası Məhərrəm ayının başlanması ilə əlaqədar fətva verib. Fətvada qeyd olunub ki, Hicri-qəməri təqvimi ilə 1437-ci il başa çatır. Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası bildirir ki, yeni Hicri 1438-ci ilin başlanğıcı - Məhərrəm ayının 1-i Miladi təqvimlə 2016-cı il oktyabr ayının 3-nə, Aşura günü isə oktyabrın 12-nə təsadüf edir.

**Fətvanın tam mətni belədir:**

Bismillahir-rəhmanir-rəhim!

"Allah yolunda öldürülənlərə (şəhid olanlara) "ölü" deməyin.

Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk (hiss) etmirsiniz" (Bəqərə surəsi, 154).

Möhtərəm mömin qardaş və bacılarımız!

Hicri-qəməri təqvimi ilə 1437-ci il başa çatır. Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası nəzərinizə çatdırır ki, yeni Hicri 1438-ci ilin başlanğıcı - Məhərrəm ayının 1-i Miladi təqvimlə



2016-cı il oktyabr ayının 3-nə təsadüf edir.

Müqəddəs aylardan olan Məhərrəm ayı Həzrət Peyğəmbərin (s) buyurduğu kimi, müharibə və münaqişələrin qadağan edildiyi aylardandır. Lakin, təəssüflər olsun ki, bu ayın onuncu, yəni Aşura günü İslam tarixinə Həzrət Peyğəmbərin (s) əziz nəvəsi İmam Hüseyn əleyhissəlamın və Əhli-Beyt (ə) tərəfdarlarının haqq uğrunda şəhadətə yetişdiyi bir gün kimi daxil olmuşdur. Müsəlman ümmətinin tarixində kədərli, eyni zamanda insanlara şərəf və qürur bəxş edən Kərbəla faciəsinin nəsillərin yaddaşında əbədi yaşaması, İmam Hüseynin (ə) həyat və şəhadətinin yad edilməsi bu gün də dindarlar üçün böyük əhəmiyyət kəsb edir. Belə ki, ölkəmizdə İmam Hüseyn (ə) əzadarlığı, Peyğəmbər nəvəsinin iman, mənəviyyatın saflığı uğrunda mübarizəsinin yad edilməsi bədbinlik əhval-ruhiyyəsinin təlqini deyil, Vətən və iman sevgisinin təcəssümü, işğal olunmuş Qarabağ torpaqlarının azad edilməsi uğrunda mübarizədə fədakarlıq və dəyanət örnəyi olmalıdır.

Məhərrəm ayının 10-u - Aşura günü 2016-cı il oktyabr ayının 12-nə təsadüf edir. Bu münasibətlə bütün dindarlara dərin hüznlə başsağlığı verir, Allah-Təaladan səbr, məğfirət diləyir və İmam Hüseyn (ə) əzadarlığının İmamın (ə) şəninə layiq şəkildə keçirilməsini tövsiyə edirik. Bildiririk ki, Aşura mərasimləri, mövcud qanunvericiliyə əsasən, məscidlərdə, ibadət ocaqlarında və onlara aid ərazilərdə ictimai asayiş qaydalarına riayət olunmaqla keçirilməlidir. Təziyə məclislərində dindarlar tərəfindən Kərbəla vaqeəsində İmam Hüseyn (ə) və onunla birlikdə şəhid olanlar yad edilməli, Vətənimiz uğrunda canlarını qurban vermiş qəhrəman övladlarımızın əziz xatirəsi ehtiramla anılmalıdır. Əzadarlıq məclisləri keçirilən məkanlarda nizam-intizam gözlənilməlidir. Qurşağadək soyunub zəncir, sinə vuraraq bədənə xəsarət yetirməklə qan çıxarmaq müqəddəs şəriətimizə uyğun deyil və ictimai qınağa səbəb olur. Əzadarlar özlərinə və digərlərinə xəsarət yetirməməli, başqalarını da belə hərəkətlərə təhrik etməməlidirlər.

Son illər təziyə günlərində Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə gerçəkləşən və xalqımız tərəfindən təqdir edilən tibbi ehtiyaclar üçün Kərbəla şəhidlərinin və Vətən uğrunda şəhid olmuş həmvətənlərimizin xatirəsinə qan verilməsi aksiyalarının təşkili ən münasib əzadarlıq nümunəsidir. Buna görə də bu, həyat verən savab əməl - örnək aksiya din xadimləri tərəfindən təbliğ edilməlidir. Ümidvarıq ki, dindarlarımız İmam Hüseyn (ə) təziyədarlığı zamanı bu humanist ənənəni davam etdirəcəklər. Bundan əlavə, din xadimlərimiz öz moizələrində Kərbəla hadisələri ilə bağlı tarixi həqiqətləri və Kərbəla şəhidliyinin mahiyyətini çatdırmaqla yanaşı, torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən Vətən şəhidlərinin fədakarlıq nümunəsini də təbliğ etməlidirlər. Moizə və xütbələrdə dindarlara erməni ekstremistləri tərəfindən zəbt olunmuş torpaqlarımızın azad edilməsi ilə bağlı Ali Baş Komandanın əmrinə hər an hazır olmaq mətləbi təlqin edilməli, İmam Hüseynin (ə) fədakarlıq nümunəsinin mənəvi əhəmiyyəti bu baxımdan ilham mənbəyi kimi xüsusi vurğulanmalıdır. Din xadimlərimiz moizələrində dindarları daima Vətən təəssübünü, milli və dövləti mənafelərimizi uca tutmağa çağırmalıdırlar.

Din xadimlərimiz ölkəmizdə mövcud sabitliyin pozulması, məzhəbi müstəvidə qarşıdurma yaradılması məqsədilə din adından siyasi alət kimi istifadə edən bəzi qüvvələrə qarşı ayıq-sayıq olmalıdırlar. Konstitusion quruluşun əsaslarına və dövlətçiliyə qarşı təxribat xarakterli dini şüarların səsləndirilməsini, din adından sui-istifadə edərək vətəndaşların hakimiyyətə qarşı siyasi mübarizəyə çağırılmasını, məzhəb və etnik zəmində qarşıdurmaya təhriki bir daha qətiyyətlə pisləyir və hesab edirik ki, Allahın Lütfü ilə, qüdrətli dövlətimiz və müdrik xalqımız belə əməllərə hər an layiqli cavab verməyə qadirdir.

Milli-mənəvi, dini dəyərlərimizin qarantı olan dövlətçiliyimizə qarşı dini zəmində çağırışlarla bağlı Qafqaz Müsəlmanları İdarəsinin bu yaxınlarda etdiyi müraciətdə əksini tapan məsələlərə din xadimlərimiz xüsusi diqqət yetirməli, İmam Hüseyn (ə) təziyədarlığından və digər dini mərasimlərdən təxribatlar üçün istifadəyə imkan verməməlidirlər.

Dindarlarımız ölkəmizin bölgə və dünya miqyasında getdikcə artan nüfuzunu, dövlət-din münasibətlərinin yüksək səviyyəsini Uca Allahın Lütfü kimi dəyərləndirirlər. Dövlət müstəqilliyimizin, milli-mənəvi dirçəlişimizin bünövrəsini qoymuş Millət atası Heydər Əliyev üçün hər zaman dualar edən dindarlarımız, bu ali mənəviyyat yolunun davamlı olması üçün həmd-sənalar edirlər. Azərbaycan dindarları Vətənimiz və onun qüdrəti üçün misilsiz səylər göstərən, ölkəmizin siyasi-iqtisadi inkişafı, əmin-amanlığının təminatçısı, milli-mənəvi, dini-multikultural dəyərlərin himayədarı olan möhtərəm dövlət başçımızın fədakar fəaliyyətinə Uca Allahdan rəvac diləyir, ölkəmizin əmin-amanlığı və rifahı üçün dualar edirlər.

Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu!"

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbəbəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** ***(enurez)***
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Təbib Darya xanım**

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 051- 634- 40-01**

**Elan**

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə!**
**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**
**Əlaqə telefonu: (050) 371-01-60; (070) 335-90-15**

**Deputat Qənirə Paşayeva Azərbaycanda Aliment Fondunun yaradılmasını təklif edib. Deputatın təklifini bir sıra deputatlar da dəstəkləyib. Aliment Fondu ilə bağlı Q.Paşayevanın təklifi bu cürdür: "Alimentlərin ödənməsi ilə bağlı çox ciddi problemlər var. Məsələ sadəcə ödəmək imkanı olmamaqla bağlı deyil. Bəzilərinin imkanı da var, ancaq aliment verməməklə qadını, əslində isə həm də uşağını cəzalandırır. Biz bu məsələnin həlli kimi, Aliment Fondunun yaradılmasını təklif edirik.**

# Aliment Fondu yaradılması təklifi dəstəklənir

## Amma təklifin yeni konfliktlərə yol açacağını düşünənlər də var

Bir çox ölkələrin bununla bağlı təcrübəsi var. Əgər kişi qadına aliment ödəməkdən imtina edirsə, bu qadına aliment məbləğini Aliment Fondu verəcək. Dövlət isə həmin pulu ödəməli olan atadan inzibati qaydada alır. Əgər o ata işsiz olmasını əsas gətirirsə, fond məşğulluq idarələri vasitəsilə ona iş yeri təklif edir. Ata bundan da imtina edirsə, məsuliyyətə cəlb olunur. Dövlət qadınlarımızın və uşaqların düşdükləri çətinlikdən çıxması üçün belə bir mexanizmlə dövriyyəyə girir. Buna ölkəmizdə həddindən artıq ehtiyac var. Biz qanunlarda da dəyişiklik etdik, alimenti ödəməkdən uzun müddət imtina etməyin məsuliyyəti həbsə qədər gedib çıxa bilər. Ancaq bu da məsələni tamamilə həll edə bilmir. Alimentlə bağlı keçmiş ərindən şikayət edən qadınlara qarşı da bölgələrdə güclü ictimai qınaq var. Ancaq bu qınaq qadınlara qarşı yönəlməməlidir. Bütün bunları nəzərə alaraq, Aliment Fonunun yaradılmasını və ya hansısa müvafiq qurumların içərisində belə bir qurumun yaradılmasını vacib hesab edirəm. Parlamentdə də bu problemi qaldırdım, bəzi həmkarlarım da dəstəklədilər".

**Aliment Fondunun yaradılmasını dəstəkləyənlərlə yanaşı, bunun yeni konfliktlərə yol açacağını düşünənlər də var. "Təmiz Dünya" İctimai Birliyinin sədri Mehriban Zeynalova Aliment Fondu ilə bağlı bu təklifi ümumən dəstəkləsə də, təklifin reallaşması mexanizmini aydın görə bilmədiyini deyib:** "Bir qisim insanlar yerlərini dəyişir, bəziləri isə miqrasiya olunur. Dövlət ödədiyi alimentin müəyyən faizini büdcənin ehtiyat resursunda da saxlamaq üçün sabit pul məbləğində kəsilmiş 108 manatın yerinə ən azı 120 manat ödəyiciyə ödətməlidir. Bu, axtarışda olanların aliment ödənişinə cəlb edilməsi üçün yaxşı təsir vasitəsi ola bilər. Ümumiyyətlə, ictimai şüuru dəyişmək və məsuliyyət hissini formalaşdırmaq üçün yaxşı vasitədir. İkinci məsələ, aliment ödəyən şəxslərin əməyə cəlb edilməsi proseduru necə olacaq? Hansı işlərə cəlb ediləcəklər? Alimentin dövlət fondundan ödənilmə



müddəti nə qədər olacaq? Yəqin ki, üç ay dövlət bu alimenti ödəyib ödəyicini məsuliyyətə cəlb edənə kimi verə biləcək. 18 il bir nəfərə alimentin ödənilməsi dövlət büdcəsinə ziyan vurmuş olar. İnsanlar bu barədə məlumatlandırılmalıdırlar. Çünki bu, yeni konflikt yarada bilər, aliment alan hər ay gəlib dövlətdən aliment tələb etməməlidir".

Qeyd edək ki, "Ailə Məcəlləsinin 76-cı maddəsində göstərilir ki, ata bir uşağa görə qazancının 1/4, 2 uşağa görə 1/3, 3 uşağa görə isə yarı hissəsini aliment ödəməlidir. Bu paylaırın miqdarı məhkəmə tərəfindən ailə və maddi vəziyyət, eləcə də diqqətəlayiq olan başqa hallar nəzərə alınmaqla azaldıla və ya artırıla bilər. İşsiz atalar isə Nazirlər Kabinetinin uşaqların saxlanması ilə bağlı müəyyən etdiyi sabit pul məbləğini, yəni 117 manatı ödəməlidir. Bəzən elə hallar olur ki, ata xarici ölkə, ana isə Azərbaycan vətəndaşı olur. Bu zaman alimentin ödənilməsi hər iki ölkənin qanunvericiliyinə əsasən həyata keçirilir. Belə hallarda atanın qazancı əsas götürülür.

Maraqlıdır, bəs digər ölkələrdə aliment məsələsi necə tənzimlənir?

Azərbaycandan fərqli olaraq xarici ölkələrdə boşanan qadınlar aliment arxasınca sürünmürlər. Bu məsələ dövlət tərəfindən tənzimlənir. Məsələn, Rusiyada hökumət borca görə köləlik institutu yaradıb. Məhkəmə icraçıları aliment ödəməyənləri məcburən işə düzəldir. İşsiz aliment ödəməyənləri əmək birjası vasitəsilə işlə təmin edirlər. Daha sonra əmək birjası məhkəməyə həmin vətəndaşa harada və hansı işi təklif etməsi barədə arayış təqdim edir.

Bir sözlə, aliment ödəməyən iş yerinin olmamasını əsas gətirərək alimenti ödəməkdən boyun qaçıra bilməz. Bundan başqa, Rusiyada aliment ödəməyən şəxslərin xarici ölkələrə getməsinə də müvəqqəti məhdudiyyət qoyulur. Rusiyada cavabdehin telefonuna mobil operator tərəfindən alimentin ödənilməsi barədə tez-tez xəbərdarlıq göndərilir, bəzi ölkələrdə aliment ödəməyən şəxsin sürücülük vəsiqəsi alınır.

Skandinaviya dövlətlərində məhkəmənin müəyyən etdiyi müddətdə alimenti ödəməyən şəxs cinayət məsuliyyətinə cəlb edilir, müəyyən müddətə azadlıqdan məhrum edilərək məcburi əməyə cəlb olunur. Onun işlədiyi müddətdə aldığı haqq alimenti almalı olan şəxsin hesabına köçürülür. Həmçinin bir çox ölkələrin praktikasında aliment ödəməyən şəxsə məxsus əşya və ya mülk satılaraq aliment ödənilir.

İsveç qanunlarına görə isə İsveç kişilərinin uşağa aliment verməsi məcburi deyil. Çünki bu ölkədə qadınlar dünyaya uşaq gətirmək üçün kişidən icazə almalıdır. Ancaq aliment verməyən atanın uşaqla görüşməsi də mümkün deyil.

❑ **Günel MANAFLI**

# Bakıda gəzən qorxulu virus

## Çexiya futbolunu iflic edən Azərbaycan mənşəli virus nədir?

**Avropa Liqasında "Qarabağ"ın rəqibi olan Çexiyanın "Slovan" klubunun 12 futbolçusu infeksion xəstəliyə yoluxub. Klubun rəsmi saytında yer alan məlumatda oyunçuların Azərbaycana səfər zamanı bu virusa yoluxduğu bildirilir. Bunun nəticəsində Çexiya çempionatının 8-ci turunda "Karvin" klubuna qarşı keçirilməsi planlaşdırılan oyun təxirə salınıb. "Oyunçuların bəzilərində səhhətləri ilə bağlı problem hələ sentyabrın 19-u "Slaviya" ilə baş tutan oyundan əvvəl başlamışdı. Həftə ərzində vəziyyət daha da pisləşdi" - deyə klubun məlumatında qeyd edilib.**

"Futbolçular bu virusa Azərbaycanda yoluxublar. Bəzi futbolçuları biz "Slaviya" ilə oyundan öncə, digərlərini isə bu həftə ərzində itirdik. Belə bir hal mənim karyeramda bir dəfə 12 il əvvəl, yeniyetmələr komandasına rəhbərlik etdiyim vaxt olmuşdu. Yaşlı futbolçular arasında belə bir şeyi ilk dəfədir ki, görürəm. "Karvin" klubu ilə oyunun təxirə salınması yeganə çıxış yolu idi. Biz 12 futbolçumuz olmadan oynaya bilməzdik" deyə, klubun baş məşqçisi Yindrix Trpişpvski bildirib.

Artıq bir neçə gündür ki, əhali arasında baş qaldıran virus mənşəli xəstəlikdən şikayət edənlərin və bununla bağlı poliklinikalara müraciət edənlərin sayı artıb. Həm yaşlı və orta nəsil, həm də uşaqlar arasında yayılan xəstəlik özünü yüksək hərarət, ürəkbulanma, qusma, halsızlıq, kəskin baş ağrıları ilə büruzə verir. Çoxları bunu qripin ilkin əlamətləri hesab etsə də, bunun qriplə heç bir əlaqəsinin olmadığını deyənlər də var.

**Mətbuat vasitəsilə məsələyə münasibət bildirən Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin (RGEM) hava damcı infeksiyaları bölməsinin rəisi Nəzifə Mürsəlova isə deyir ki, əhalinin şikayətləndiyi xəstəlik qripin ölkədə yayılmış hər hansı yeni növü deyil:** "Bu hava, fəsil dəyişkənliyi ilə əlaqədar olan kəskin respirator xəstəlikdir. Qripin yayılması laboratoriyamızda da təsdiqlənməyib".

**Pediatr Vaqif Qarayev isə bunun kəskin virus adı ilə yayılmasının əleyhinə olduğunu dedi:** "Bu, sadəcə olaraq, soyuqdəymədir. Qrip gedişi, müalicəsi,



tez-tez ağırlaşmaları ilə gedən ayrıca bir xəstəlikdir. Sadaladığımız əlamətlərin isə hamısı ayrı-ayrılıqda viruslardır. Qusma, qarın ağrısı ilə keçən xəstəliklər indi demək olar ki, yoxdur. Bunun axması, öskürək, qaytarma da bir virus idi. Bu virus da artıq sönüb. Amma son bir həftədə baş verən soyuqdəymə iqlim dəyişikliyi ilə bağlıdır. Kəskin temperatur dəyişikliyi imkan verir ki, o viruslar baş qaldırsın. Mən deməzdim ki, biz virus yayılıb ifadəsini işlətsək insafsızlıq olardı. Amma hazırda mövsümü xəstəlik var. Bundan uşaqları qorumaq üçün ilk növbədə xəstə uşaqlar məktəbə, bağçaya getməməlidir. Bu cür xəstə uşaqları məktəb də, bağça da qəbul etməməlidir. Bağçada mütləq tibb bacısı olmalıdır və fəsil dəyişkənliyində bütün uşaqlarda qızdırma ölçülməlidir. Xəstə uşaq mütləq sağlam uşaqları xəstəliyə yoluxdurur. Temperatur dəyişikliyi olanda uşaq orqanizmi immunitetinə mütləq təsir edir. Uşaq heç xəstələnməsə belə onun müqaviməti aşağı düşdüyünə görə xəstəliyə yoluxmaq meylliyi daha çox olur. Uşaqları istənilən səviyyədə geyindirmirlər. Valideyn uşağı nə nazik, nə də üst-üstə qalın geyindirməməlidir. Paltar günün temperaturuna uyğun olmalıdır".

**V.Qarayev hazırda yayılan xəstəliyin, sadəcə olaraq, soyuqdəymə olduğunu dedi:** "Qripə qarşı vaksin, peyvəndlər olur. Payız aylarında bütün ölkələrdə bu peyvənd vurulur. Müxtəlif ölkələrdə qripin hansı törədicisinin gəldiyi müəyyənləşdirilir və əhali həmin törədiciyə qarşı peyvənd olunmağa başlayır. Təəssüf ki, bizdə uşaqlara lazım olan heç bir peyvənd edilmir".

❑ **Günel MANAFLI**

# YENİ MÜSAVAT

## Son səhifə

N 213 (6534) 28 sentyabr 2016




## Dəmiri çatmayan adam arıqlaya bilmir

Dəmir çatışmazlığı bir sıra xəstəliklərə səbəb olan problemdir. Ancaq yeni araşdırmalar göstərib ki, dəmir çatışmazlığından əziyyət çəkənlər köklüyə daha meyllidirlər. Üstəlik, onlar istəsələr də, arıqlaya bilmirlər. Yəni kök insanda dəmir əskikliyi varsa, o nə qədər pəhriz saxlasa da, arıqlaya bilməyəcək. Çünki dəmir çatışmazlığı müəyyən hormonların nisbətinin pozulmasına səbəb olur ki, bu da kökəlməklə nəticələnir. Dəmir çatışmazlığı arıqlama prosesinin də qarşısını alır.

Dəmir çatışmazlığına daha çox böyümə çağındakı uşaqlarda, menstruasiya olan gənc qızlarda, hamilələrdə və uşaq əmizdirən analarda, həmçinin sağlam qidalanmayan insanlarda rast gəlinir.

Hər ay mütəmadi olaraq menstruasiya keçirənlər 1 ml. qanla 5 mg. dəmir itirirlər. Bu itirilən dəmir bərpa edilməlidir. Dəmir çatışmazlığından əziyyət çəkən insanlar tez-tez acırlar. Ona görə də arıqlaya bilmir, hətta gün keçdikcə daha da kökəlirlər. Ən pisi isə odur ki, belə insanlar pəhriz saxlasalar, təhlükəli xəstəliklərə yaxalana bilərlər.

Mütəxəssislər tez-tez acan və üşüyən insanların qan azlığı və dəmir çatışmazlığından şübhələnmələrini və həkimə müraciət etmələrini tövsiyə edirlər. Əgər arıqlaya bilməməyinizin səbəbi dəmir çatışmazlığıdırsa, o zaman bol miqdarda dəmir ehtiva edən qidalar yeyərək bu problemi kökündən həll etməlisiniz.

## Yaponiyada dünyanın ən qoca it-pişikləri yaşayır

Yaponiyada it və pişiklərin uzunömürlülüyü tarixi rekord həddinə çatıb. Bu nəticəyə Tokio Universitetinin ekspertləri gəliblər. Məlum olub ki, ölkədəki itlərin orta ömür həddi 13.9, pişiklərinki isə 11.9 ildir. Heyvanlar peyvəndlər, yüksək qulluq və qidalanma sayəsində uzun yaşayırlar. "Blomberg"in xəbərinə görə, Yaponiyada ev heyvanlarının sayı 19.8 milyondur. Bu, ölkədə 14 yaşa qədər olan uşaqların sayından (15.9 milyon) çoxdur. Ekspertlər qeyd edir ki, ölkədə uşaqlı ailələrin sayı azaldıqca heyvan saxlama faizi artır.



## 30 il sonra yaddaşı yerinə gəldi

Kanada sakini Sent Ketrins 30 il öncə unutduğu adını, eləcə də doğulduğu zamanı və məkanı xatırlayıb. 30 il bundan öncə amneziyaya uğrayan 51 yaşlı Sent sosial işçinin yanına gələrək adının Edqar Latyulip olduğunu və Ontarionun Kitçener şəhərində doğulduğunu deyib. Kanadalının sözlərinə görə, 1986-cı ildə, onun 21 yaşı olanda, əqli cəhətdən problemlər yaşayıb. Öz doğma şəhərindən Niaqara şəlaləsinə gedən yolda Latyulip başından ciddi zərbə alıb və beləcə kim olduğunu, harada yaşadığını unudub. Bütün bu illər ərzində onun adı itkin düşənlərin siyahısında olub. Hətta anası əlil olan oğlunun oğurlandığı qənaətinə gəlib. 30 il boyunca Latyulip Sent-Ketrinsdə, doğma şəhərindən saat yarımlıq məsafədə yaşayıb. Edqarın ailəsinə xəbər verilib ki, o, sağdır. Doğmalarını təsdiqlətməsi üçün ona DNK testi də edilib. Kişinin anası danışıb ki, oğlunun itdiyi ilk iki il özündə olmayıb. Bu hekayəni araşdıran detektiv Duyen Qinqeriç isə deyib ki, bu, onun təcrübəsində ilk belə hadisədir. Onun sözlərinə görə, itkin düşdüyü zənn edilən şəxsin amneziya qurbanı olaraq başqa bir şəhərdə yaşaması faktına bu günə qədər rast gəlinməyib.





## Bu qadın 3 il hamilə kimi yaşadı

"Daily Mail"in xəbərinə görə, Amerikada Margaret Mcmahon adlı qadın 3 il boyunca hamilə kimi gəzib. Buna səbəb bağırsaq sistemindəki problem və bunun nəticəsi olaraq yaranan şişlik olub. 48 yaşlı qadın əvvəlcə bu şişliyin hamiləliklə bağlı olmasından şübhələnsə də, sonradan tomoqrafiyadan keçərək, bağırsağında bir uşaq böyüklüyündə şiş olduğunu öyrənib. Təhlükəli olmayan şişin həssas şəkildə götürülməsi lazım idi. Əməliyyat üçün gözləyən Margaret bu zaman həyatını da arxa plana atmışdı. Belə ki, qarnındakı şiş idrar kisəsinə təzyiq etdiyi üçün o da sürəkli ayaqyoluna gedirdi. 2 uşaq anası olan qadın yaşadıqları ilə bağlı "heç bitməyən hamiləlik kimi idi" deyib. Qadın düzgün diaqnoz üçün düz 3 il gözləyib. Ona bağırsaq sindromu diaqnozu qoyan həkimlər öncə arıqlamasını məsləhət görüblər. Şişi görəndən sonra narahatlıq üçün əsas olmadığını deyiblər.




**QOÇ** - İndi sizə mübahisələrə girişmək, böyük və müəmmalı məsələlər barədə müzakirələr aparmaq yolverilməzdir. Yaxşısı budur, adi işlərin həlli ilə məşğul olasınız. Əks halda, çəkdiyiniz əziyyətlər hədər gedəcək.

**BUĞA** - Kifayət qədər təzadlı ərəfədir. Hər addımı ölçüb-biçməyə çalışın. Mövqeyinizə zidd hərəkətlərə yol verməyin. Astroloji göstəricilər saat 14-dən sonra kiməsə güzəştə getməyi məsləhət görmür.

**ƏKİZLƏR** - Yaxşı olar ki, əsas diqqətinizi maliyyə məsələlərinə yönəldəsiniz. Bilirsiniz ki, qlobal işləriniz pulsuz keçmir. Bu səbəbdən kiməsə borc vermək fikrinə düşməyin. Başqalarının şəxsi işlərinə müdaxilə etməyin.

**XƏRÇƏNG** - Qarşınızda kifayət qədər mistik bir gün durur, anlaşılmaz hadisələr çox olacaq. Passivlik müstəvisində qərar tutan ailə-sevgi münasibətlərinə yenidən baxın. Mümkün qədər bütün neqativlikləri minimuma endirin.

**ŞİR** - Bütün işləriniz qaydasında getdiyindən kimlərəsə yalan vəd verməyin. Qətiyyən bacarmadığınız işin qulpundan yapışmayın. Əsəbi anlarda dostlarınız arasında sakitləşməyə çalışın.

**QIZ** - Ehtiyatlı olun, səhhətinizlə bağlı xoşagəlməzliklər baş verə bilər. Ələlxüsus da saat 12-16 arası özünüzü maksimum qorumalı, əsəblərinizi cilovlamalısınız. Bu gün istənilən səfəri təxirə salsanız, yaxşıdır.

**TƏRƏZİ** - Bürcünüzün romantikaya olan hədsiz həvəsi çox güman ki, bu gün təmin olunacaq. Hansısa xoşagəlməzliyin baş verəcəyinə inanmayın. Bir az səmimi olun, dünyamızı, insanları daha çox sevin.

**ƏQRƏB** - Gün ərzində enerji sərf etdiyiniz istənilən sahədə uğurlar sizi tərk etməyəcək. İstər fəaliyyətdə, istərsə də qarşılıqlı münasibətlərdə hər şey ürəyinizcə olacaq. Nahardan sonra səfərə çıxmaq olar.

**OXATAN** - Günün ümumi mənzərəsi ürəyinizcə olacaq. Artıq daxili süstlüyünüz və fəaliyyətlə bağlı gərginliyiniz arxada qalacaq. Ətrafınıza yığışan yeni dost-tanışlar məqsədlərə yetişməkdə sizə yardımçı olacaqlar.

**OĞLAQ** - Bütün vacib işlərinizi saat 16-ya qədər tamamlamağa çalışın. Əmin olun ki, həmin vaxtda qarşınızda duran vəzifələrin əksəriyyətini həyata keçirə biləcəksiniz. Sonrakı saatlarda isə istənilən riskdən imtina edin.

**SUTÖKƏN** - Əgər bu təqvimdən zövq alıb rahatlanmaq istəyirsinizsə, mütləq səfərə çıxın. Bununla siz stress və ağrılarınızı aradan qaldıra, enerjinizi daha da saflaşdıra bilərsiniz. Ailə-sevgi məsələlərində xırdaçılığa yer verməyin.

**BALIQLAR** - Özünüzü gərginliyə salmayın. Uzun-uzadı kiməsə, nəyisə izah etmək enerji itkinizdən savayı bir iş deyil. Əgər bu kimi lüzumsuz işlərlə məşğul olsanız, ixtiyarınızda olan tarixdən zövq almayacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Sevgilisinin diqqətini çəkmək üçün... 23-cü mərtəbədən yerə düşdü



Rusiyanın Novosibirsk vilayətində 16 yaşındakı bir gənc oğlan sevgilisinin diqqətini çəkmək üçün az qala canını itirirdi. Binanın 23-cü mərtəbəsindəki balkona çıxan, orda gəzməyə çalışan gənc müvazinətini saxlaya bilməyərək yıxılıb. 16 yaşlı Aleksandr Şadrin 70 metr hündürlükdən aşağı düşməsinə baxmayaraq, sağ qalıb. Buna səbəb onun bir maşının üzərinə düşməsi və maşının tavanının balış effekti yaratması olub. Hadisədən ağır yara alaraq qurtulan Şadrini müayinə edən həkimlər onun bu hadisədən ağır xəsarət almamasına təəccüblənibl. Gəncin məqsədi isə pəncərədən ona baxan sevgilisinə şou göstərmək olub.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.